Rəsmi dövlət qəzeti



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 115 (8138) BAZAR, 26 may 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Davamlı islahatlar yüksək sosial rifahın təminatıdır

## İlham Əliyev dinamik inkişafın təmin olunacağını, əldə edilən bütün əlavə gəlirlərin vətəndaşın sosial müdafiəsinə yönəldiləcəyini bir daha bəyan etdi

Ölkəmizin sosial-iqtisadi sferasında köklü və sistemli dəyişikliklərə başlanılıb. Həyata keçirilən sosial-iqtisadi siyasətin prioritet istiqamətlərindən biri də iqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft sektorunun inkişafıdır. Bu baxımdan iqtisadiyyatın digər sahələri ilə yanaşı, sənayenin inkişafına xüsusi önəm verilir.

Prezident İlham Əliyevin sənayenin inkişafı ilə bağlı strateji xəttinə uyğun olaraq həyata keçirilən genişmiqyaslı sənayeləşmə siyasəti nəticəsində rəqabətqabiliyyətli və ixracyönümlü yüzlərlə yeni sənaye müəssisəsi yaradılır, tələbatın ödənilməsində yerli məhsulların payı əhəmiyyətli dərəcədə artır və ixracın həcmi yüksəlir.

Mayın 16-da Pirallahı Sənaye Parkında "Diamed" şpris istehsalı zavodunun açılış mərasimində dövlət başçısı da vurğuladı ki, ölkədə sənaye istehsalı artır və görülən işlər nəticəsində bu ilin dörd ayında qeyri-neft sektorunda 15 faizdən çox artım olub. Bunu şərtləndirən amillər isə həm sənaye potensialını gücləndirən böyük müəssisələrin fəaliyyətə başlaması, həm də kiçik və orta müəssisələrin işə düşməsidir. Bu da onu göstərir ki, Azərbaycanda çox əlverişli biznes mühiti, sərmaye iqlimi var. Xarici investorlar Azərbaycanda yaradılan imkanlardan rahat yararlanırlar. Belə olmasaydı, son 15 ildə ölkə iqtisadiyyatına 260 milyard dollar investisiya yatırılmazdı. Elə təkcə bu ilin 4 ayında iqtisadi və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala yönəldilən 3 916 milyon manatlıq vəsait onu deməyə əsas verir ki, bu il də xarici və yerli investorlar tərəfindən ölkə iqtisadiyyatına kifayət qədər sərmaye yatırılacaq. Bu da ölkədə biznes mühitinin daha da yaxşılaşdırılması istiqamətində atılan addımlara öz töhfəsini vermiş olacaq.

Dövlət başçısı ölkədəki biznes mühitini dəyərləndirərkən vurğulayıb ki, bütün bunlar ölkənin dinamik inkişafını şərtləndirir: *"Biz biznes mühitinin yaxşılaşması nəticəsində yeni reallıqları görürük və əminəm ki, dinamik inkişafımız bundan sonra da təmin ediləcək.*

**Ardı 6-cı səh.**

# ABŞ-dan İlham Əliyevin islahatlar kursuna tam dəstək

## Xarici ölkə rəhbərlərinin son təbrik məktubları Azərbaycan Prezidentinin və respublikamızın güclü beynəlxalq nüfuzunu bir daha təsdiq edir



Hər bir dövlətin tarixində əlamətdar məqam olaraq həkk edilən yetərincə günlər var. Onların ən mühüm bayram kimi qeyd edilənləri isə, adətən, xarici ölkə rəhbərlərinin də diqqətindən kənar qalmır. Qarşılıqlı təbriklər diplomatik etiketin bir elementidir. Lakin bu məktublar yalnız nəciblik göstəricisi olmur, onların müəllifləri təbriklərini ünvanladıqları Prezidentə və dövlətə münasibətlərini də əks etdirirlər.

### Donald TRAMP: "İlham Əliyevin liderliyini dəyərləndirirəm"

Bu baxımdan 28 May - Respublika Günü ilə bağlı Prezident İlham Əliyevə xarici həmkarları tərəfindən göndərilən məktubların elə ilkin təəssüratı ölkə rəhbərimizin və ümumilikdə dövlətimizin yüksək beynəlxalq nüfuzunu aydın göstərir.

Məsələn, dünyanın əsas fövqəlgücü sayılan Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp "Dövlətlərimiz arasında ortaq maraqlar üzərində qurulmuş güclü tərəfdaşlıq mövcuddur. Azərbaycanın beynəlxalq təhlükəsizliyə verdiyi töhfələri və "Cənub qaz dəhlizi" təşəbbüsünü irəli sürməklə Avropanın enerji təhlükəsizliyinin gücləndirilməsində sizin liderliyinizi dəyərləndirirəm", - deyə İlham Əliyevə münasibətini ifadə edir.

Ardınca isə İlham Əliyevin islahatlar kursuna tam dəstəyini ifadə edir: "Azərbaycanda islahatlar istiqamətində, xüsusilə də qanunun aliliyi sahəsində Azərbaycan xalqının mənafeyinə xidmət edəcək və əməkdaşlığımızın dərinləşməsi üçün imkanlar yaradacaq bütün addımları alqışlayırıq".

ABŞ Prezidentinin Dağlıq Qarabağ münaqişəsinin həlli prosesində İlham Əliyevin iştirakını təqdir etməsi də mühüm münasibətdir: "Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə və dayanıqlı həlli istiqamətində ATƏT-in Minsk qrupu prosesində Sizin şəxsi iştirakınızı təqdir edirik".

Maraqlı məqam odur ki, ABŞ Prezidenti Donald Tramp İlham Əliyevlə əməkdaşlıq səviyyəsini yüksək qiymətləndirsə də, bunu yetərli saymır və "tərəfdaşlığımızın gələcək illərdə də inkişaf etməsini səmimiyyətlə arzulayıram" diləklərini çatdırır.

### Həmkarları İlham Əliyevin liderlik bacarığını, idarəçilik istedadını xüsusi vurğulayırlar

Dünyanın nüfuzlu liderləri tərəfindən göndərilən digər təbriklərdə də Azərbaycan Prezidentinə və respublikamıza dəstək bildirilir.

Çin Xalq Respublikasının Sədri Si Cinpin "Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra 28 il ərzində davamlı iqtisadi inkişaf yolu ilə irəliləyir, xalq sülh və rifah içində yaşayır, ölkənizin beynəlxalq statusu və nüfuzu daim artır. Mən Çin-Azərbaycan münasibətlərinin inkişafına xüsusi əhəmiyyət verirəm. Bu yaxınlarda II "Bir kəmər, bir yol" Beynəlxalq Əməkdaşlıq Forumu çərçivəsində biz sizinlə əhəmiyyətli görüş keçirdik və bir sıra razılıqlar əldə etdik", - deyə yazır.

Çin rəhbərinin "Ölkələrimizin və xalqlarımızın rifahı naminə ikitərəfli münasibətlərin və bütün sahələrdə əməkdaşlığın daha yeni pilləyə yüksəlməsi üçün sizinlə birgə səylər göstərməyə hazıram" fikri isə dünyanın ən qüdrətli ikinci iqtisadi-siyasi fövqəlgücü olan dövlətin İlham Əliyevə aşkar dəstəyi və etimadıdır.

Ümumiyyətlə, İlham Əliyevə ünvanlanan təbrik məktublarında onun liderlik bacarığı, idarəçilik istedadı və son islahatlar kursunun uğurlu gedişi xüsusi vurğulanır.

**Ardı 6-cı səh.**

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı - Respublika Günü münasibətilə Sizi və Azərbaycan xalqını təbrik edirəm.

Amerika Birləşmiş Ştatlarının etibarlı müttəfiqi olan Azərbaycan Respublikası terrorizmə qarşı qlobal mübarizədə ABŞ-a öz qəti dəstəyini vermiş ilk ölkələr sırasındadır.

ABŞ ölkələrimiz arasında sülhməramlı əməliyyatlar və enerji təşəbbüsləri sahələrindəki davamlı əməkdaşlığımızı, eləcə də mühüm əhəmiyyət daşıyan ticari tərəfdaşlığımızı yüksək qiymətləndirir.

Sizə və Azərbaycan xalqına tərəfdaşlığınıza və azadlıq ideallarına daimi sadiqliyinizə görə minnətdarlığımı bildirirəm. Respublika gününüzün 101-ci ildönümü münasibətilə Sizi Amerika Birləşmiş Ştatları adından bir daha təbrik edirəm.

*Hörmətlə,*

***Henri KUELLAR,***
***ABŞ konqresmeni***

Hörmətli cənab Prezident!

TÜRKSOY-un Baş Katibliyi, Türkdilli ölkələrin mədəniyyət nazirlərinin Daimi Şurası adından və şəxsən öz adımdan Zati-alinizi və qardaş Azərbaycan xalqını milli bayram - Respublika Günü münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı Azərbaycan Respublikası ilə sıx mədəni əlaqələri, ölkənizin təşkilatımıza dəstəyini, ümumtürk mədəniyyətinin və dəyərlərinin təbliğində rolunu yüksək qiymətləndirir.

Əmin ola bilərsiniz ki, TÜRKSOY ilə Azərbaycan Respublikası arasındakı yüksəksəviyyəli mədəni əlaqələr bundan sonra da inkişaf etdiriləcək və Azərbaycanın zəngin mədəni irsi TÜRKSOY-un xətti ilə keçiriləcək beynəlxalq tədbirlərdə bundan sonra da layiqincə təmsil olunacaqdır.

Bu xoş fürsətdən istifadə edərək Zati-alinizə möhkəm cansağlığı və səadət, qardaş Azərbaycan xalqına isə sülh, tərəqqi və əmin-amanlıq arzu edirəm.

*Dərin hörmət və ehtiramla,*

***Düsen KASEİNOV,***
***TÜRKSOY-un Baş katibi***

## İndoneziya Respublikasının Prezidenti zati-aliləri cənab Coko Vidodoya

Hörmətli cənab Prezident!

İndoneziya Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan ilə İndoneziya arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı yolunda səylərimizi bundan sonra da müvəffəqiyyətlə davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost İndoneziya xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 may 2019-cu il*

## Gürcüstanın Prezidenti zati-aliləri xanım Salome Zurabişviliyə

Hörmətli xanım Prezident!

Gürcüstanın milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan ilə Gürcüstan arasındakı münasibətlər tarixən dostluq və mehriban qonşuluq şəraitində yaşamış xalqlarımızın iradəsindən qaynaqlanır. Belə möhkəm təməllərə əsaslanan dövlətlərarası münasibətlərimizin yüksək səviyyəsi məmnunluq doğurur.

İnanıram ki, ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımız, qarşılıqlı etimad və dəstəyə əsaslanan strateji tərəfdaşlığımız xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Gürcüstan xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 may 2019-cu il*

## Azərbaycan Respublikasının mədəniyyət xadimlərinə fəxri adların verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan mədəniyyətinin inkişafında xidmətlərinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikasının fəxri adları verilsin:

**"Xalq şairi"**

Cəfərov Vahid Əziz oğlu (Vahid Əziz)
Əliyev Ramiz Məmmədəli oğlu (Ramiz Rövşən)
Yaqubov Musa Səfiməmməd oğlu (Musa Yaqub)

**"Xalq yazıçısı"**

Abdullayev Kamal Mehdi oğlu (Kamal Abdulla)
Rəsulzadə Natiq Rəsul oğlu
Vəliyeva Afaq Məsud qızı (Afaq Məsud)

**"Xalq artisti"**

Muradov İlqar Əliməmməd oğlu
Zeynallı Cavanşir Mirzəməmməd oğlu

**"Əməkdar incəsənət xadimi"**

Cəbrayıllı Vaqif İsib oğlu (Vaqif Bayatlı Odər)
Hüseynbəyli Elçin Hüseyn oğlu
Mustafayev Firuz Qədimalı oğlu (Firuz Mustafa)

**"Əməkdar artist"**

Xasiyev Nadir Şənbə oğlu
Kərimova Cəmilə Rüstəm qızı
Məsimov Qurban Abdulla oğlu
Nağıyev Qasım Gəncalı oğlu
Niftəliyeva Nurbəniz Nurəddin qızı
Süleymanova Elmira Süleyman qızı

**"Əməkdar mədəniyyət işçisi"**

Əliyev Asim Yediyar oğlu
Əlixanov Vaqif Ənvər oğlu (Vaqif Əlixanlı)
Güləliyev Abbas Musaxan oğlu
Məmmədov Rauf Davud oğlu

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 may 2019-cu il*

# Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Mənzil Məcəlləsində və Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu, 11-ci, 15-ci, 25-ci və 27-ci bəndlərini rəhbər tutaraq, "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 4 may tarixli 1140-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Mülki Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (I kitab), maddə 250, № 5, maddə 323; 2002, № 12, maddə 709; 2003, № 8, maddə 420; 2004, № 3, maddə 123, № 5, maddə 318, № 6, maddə 415, № 10, maddə 761, № 11, maddə 901; 2005, № 2, maddə 61, № 6, maddə 466, № 8, maddələr 684, 692, 693, № 11, maddə 996, № 12, maddə 1085; 2006, № 2, maddə 68, № 3, maddə 225, № 5, maddə 387, № 6, maddə 478, № 8, maddə 657, № 12, maddə 1005; 2007, № 2, maddə 80, № 6, maddə 560, № 8, maddə 745, № 10, maddə 937, № 11, maddə 1053, № 12, maddələr 1215, 1219; 2008, № 3, maddə 145, № 6, maddə 456, № 7, maddə 602, № 12, maddə 1049; 2009, № 2, maddə 47, № 5, maddə 295, № 6, maddə 404, № 7, maddə 517; 2010, № 2, maddə 75, № 3, maddə 171, № 4, maddələr 265, 266, 276; 2011, № 2, maddə 71, № 7, maddə 586, № 8, maddə 750, № 12, maddələr 1073, 1102; 2012, № 1, maddə 5, № 5, maddə 403, № 6, maddə 498; 2013, № 1, maddə 15, № 6, maddə 620, № 11, maddə 1280, № 12, maddələr 1469, 1478; 2014, № 2, maddə 96, № 7, maddə 768; 2015, № 3, maddə 254, № 5, maddə 512, № 7, maddə 814, № 10, maddə 1093; 2016, № 1, maddə 26, № 2 (I kitab), maddələr 186, 204, № 3, maddə 401, № 4, maddələr 640, 646, № 6, maddə 1005, № 7, maddə 1248, № 12, maddələr 1998, 2018; 2017, № 2, maddələr 151, 153, № 4, maddə 524, № 5, maddələr 703, 735, № 6, maddə 1035, № 11, maddə 1953, № 12 (I kitab), maddələr 2210, 2234, 2239; 2018, № 2, maddə 142, № 4, maddə 650, № 5, maddələr 845, 851, № 11, maddə 2212, № 12 (I kitab), maddələr 2467, 2518, 2526, 2533; 2019, № 1, maddələr 23, 50) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 90.5-ci maddənin ikinci cümləsində "mühasibat hesabatının" sözləri "maliyyə hesabatlarının" sözləri ilə əvəz edilsin;

1.2. 91.3.3-cü, 91-3.5-ci və 111.3.4-cü maddələrdə "mühasibat balanslarını" sözləri "maliyyə hesabatlarını" sözləri ilə əvəz edilsin;

1.3. 91.4-cü maddənin birinci cümləsinə "cəmiyyət" sözündən sonra "(mikro və kiçik sahibkarlıq subyektləri istisna olmaqla)" sözləri əlavə edilsin və həmin maddənin birinci və ikinci cümlələrində "hesabatının" sözü "hesabatlarının" sözü ilə əvəz edilsin;

1.4. 99.2-ci maddədə "mühasibat balansını" sözləri "maliyyə hesabatlarını (mikro və kiçik sahibkarlıq subyektləri istisna olmaqla)" sözləri ilə əvəz edilsin;

1.5. 106-1.3.2-ci maddədə və 112.1-ci maddənin üçüncü cümləsində "mühasibat balansı" sözləri "maliyyə hesabatları" sözləri ilə əvəz edilsin;

1.6. 107.1.4-cü maddədə "mühasibat balanslarını, mənfəət və zərər hesablarını" sözləri "maliyyə hesabatlarını" sözləri ilə əvəz edilsin;

1.7. 107.6-cı maddənin birinci cümləsində "hesabatının" sözü "hesabatlarının" sözü ilə əvəz edilsin.

**Maddə 2.** Azərbaycan Respublikasının Vergi Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (I kitab), maddə 583; 2001, № 7, maddə 454, № 9, maddə 576, № 12, maddə 734; 2002, № 5, maddə 249, № 12, maddə 707; 2003, № 8, maddə 425, № 12 (I kitab), maddə 671; 2004, № 1, maddə 1, № 11, maddə 887, № 12, maddə 980; 2005, № 2, maddə 61, № 8, maddə 688, № 12, maddə 1081; 2006, № 12, maddələr 1005, 1026; 2007, № 1, maddə 4, № 6, maddə 597, № 8, maddə 745, № 11, maddə 1053, № 12, maddə 1192; 2008, № 7, maddə 602, № 11, maddə 960; 2009, № 7, maddə 506; 2011, № 1, maddə 14, № 7, maddələr 588, 603, № 12, maddə 1115; 2012, № 6, maddələr 500, 513, № 7, maddə 652, № 9, maddə 841, № 12, maddə 1226; 2013, № 2, maddə 91, № 4, maddə 366, № 11, maddə 1278, № 12, maddələr 1483, 1486, 1495; 2014, № 2, maddələr 94, 98, № 6, maddə 608, № 7, maddə 770, № 8, maddə 957, № 10, maddə 1158, № 12, maddə 1525; 2015, № 1, maddə 11, № 12, maddə 1433; 2016, № 2 (I kitab), maddə 207, № 3, maddələr 396, 402, № 5, maddə 848, № 6, maddələr 973, 974, 1015, № 7, maddə 1245, № 10, maddə 1603, № 11, maddələr 1752, 1792, 1793, № 12, maddələr 2001, 2037, 2046; 2017, № 2, maddə 146, № 5, maddələr 695, 723, 737, № 6, maddə 1055, № 7, maddə 1304, № 8, maddə 1509, № 12 (I kitab), maddələr 2219, 2251, 2270; 2018, № 2, maddə 149, № 5, maddə 863, № 6, maddə 1193, № 7 (I kitab), maddələr 1414, 1427, № 10, maddə 1962, № 11, maddələr 2186, 2210, № 12 (I kitab), maddələr 2498, 2509; 2019, № 1, maddə 30; Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1542-VQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 16.1.7-ci və 67.1-ci (üçüncü halda) maddələrə "mühasibat" sözündən sonra "uçotu" sözü əlavə edilsin;

2.2. aşağıdakı məzmunda 24.0.1-2-ci maddə əlavə edilsin:

"24.0.1-2. "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş hallarda mühasibat uçotu sahəsində dövlət nəzarətini həyata keçirməyə;";

2.3. 34.7-ci maddədə "mühasibat" sözü "maliyyə" sözü ilə əvəz edilsin.

**Maddə 3.** Azərbaycan Respublikasının Mənzil Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 8, maddə 612; 2011, № 12, maddə 1108; 2012, № 6, maddə 501; 2017, № 5, maddə 732, № 7, maddə 1298, № 11, maddə 2190; 2019, № 1, maddə 14, № 3, maddə 368) 128.0.7-ci maddəsi aşağıdakı redaksiyada verilsin:

"128.0.7. cəmiyyət iştirakçılarının siyahısını, kargüzarlığı, mühasibat uçotunu aparmaq və maliyyə hesabatlarını tərtib etmək;".

**Maddə 4.** Azərbaycan Respublikasının Gömrük Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 9, maddə 787; 2014, № 10, maddə 1155, № 11, maddə 1368; 2016, № 11, maddə 1791; 2017, № 3, maddə 339, № 7, maddə 1303, № 8, maddə 1510; 2018, № 1, maddə 30, № 11, maddə 2211, № 12 (I kitab), maddə 2521; 2019, № 1, maddə 30) 70.2-ci maddəsinə "mühasibat" sözündən sonra "uçotu" sözü əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 may 2019-cu il*

# "Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Mənzil Məcəlləsində və Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 3 may tarixli 1584-VQD nömrəli Qanununun tətbiqi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Mənzil Məcəlləsində və Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 3 may tarixli 1584-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Mənzil Məcəlləsində və Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Mənzil Məcəlləsində və Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 may 2019-cu il*

# Azərbaycan Respublikasının mədəniyyət xadimlərinin "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan mədəniyyətinin inkişafında xidmətlərinə görə aşağıdakı şəxslər "Tərəqqi" medalı ilə təltif edilsinlər:

Bulanova Oksana İqorevna
Əhmədov Ənvər Misir oğlu
Qəniyev Maarif Soltan oğlu
Mustafayev Sabir Məmməd oğlu
Salayev İltifat Saleh oğlu
Talıbzadə Alina Dmitriyevna

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 may 2019-cu il*

# Azərbaycan-Fransa parlamentlərarası münasibətləri müzakirə edilib

Parisdə AŞ PA Komitə iclasında iştirak edən bu qurumdakı nümayəndə heyətimizin rəhbəri Səməd Seyidov Fransa Senatının xarici əlaqələr, müdafiə və silahlı qoşunlar komissiyasının prezidenti Kristian Kambon ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan-Fransa parlamentlərarası münasibətləri müzakirə edilib. Bu əlaqələrin daha da genişləndirilməsi məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

Söhbət zamanı iki ölkə arasında siyasi, iqtisadi və mədəniyyət sahələrində əlaqələrin inkişafı istiqamətində əldə edilmiş uğurlar xüsusi qeyd olunub. Bu sahələrdə münasibətlərin, eləcə də parlament diplomatiyasının rolunun daha da genişləndirilməsi, həmçinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məsələlər müzakirə edilib.

S.Seyidov senator K.Kambonu ölkəmizə səfərə dəvət edib. Dəvət məmnuniyyətlə qəbul olunub.

# Ermənistan silahlı qüvvələrinin bölmələri sutka ərzində atəşkəs rejimini 20 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri sutka ərzində cəbhənin müxtəlif istiqamətlərində atəşkəs rejimini 20 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikası Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə, İcevan rayonunun Ayqeovit kəndində və adsız yüksəkliklərdə, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Azərbaycan Respublikasının Qazax rayonunun Qaymaqlı, Aşağı Əskipara, Bala Cəfərli kəndlərində və adsız yüksəkliklərdə, Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Tağıbəyli, Şıxlar, Mərzili, Füzuli rayonunun Horadiz, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqelərinə atəş açılıb.

# UEFA Avropa Liqasının final qarşılaşması ilə əlaqədar Dənizkənarı Milli Parkda azarkeş festivalı





UEFA Avropa Liqasının final qarşılaşmasının Bakıda keçirilməsi ilə əlaqədar reallaşdırılan silsilə tədbirlər çərçivəsində mayın 25-də Dənizkənarı Milli Parkda azarkeş festivalı təşkil olunub.

AZƏRTAC xəbər verir ki, UEFA Avropa Liqasının kubokunun nümayiş olunduğu festivalda Baş nazirin müavini, UEFA Avropa Liqasının Bakıda keçirilməsi ilə əlaqədar yaradılan Təşkilat Komitəsinin sədri Yaqub Eyyubov, məşhur futbolçular - İngiltərə millisinin sabiq hücumçusu Maykl Ouen və İtaliya yığmasının sabiq qapıçısı Françesko Toldo, AFFA-nın prezidenti Rövnəq Abdullayev, assosiasiyanın birinci vitse-prezidenti Rauf Əliyev, vitse-prezidenti Elşad Nəsirov, İcraiyyə Komitəsinin üzvləri və s. şəxslər iştirak ediblər.



Festivala böyük maraq göstərən şəhər ictimaiyyətinin nümayəndələri, futbol həvəskarları UEFA Avropa Liqasının kuboku və tanınmış futbolçularla xatirə şəkilləri çəkdiriblər. Azərbaycanın ən yaxşı DJ-ləri, musiqi qrupları və incəsənət ustaları rəngarəng çıxışları ilə festival iştirakçılarına xoş anlar yaşadıblar.

Festival iştirakçıları, həmçinin müxtəlif futbol məşğələlərində və maraqlı "Virtual reallıq zonası"nda futbol bacarıqlarını sınaqdan keçirib, müxtəlif mükafatlar və UEFA Avropa Liqasının əyləncəli suvenirlərini əldə etmək şansı qazanıblar. Uşaq zonasında balacalar müxtəlif attraksionlarda əylənib, futbol məşqləri ediblər.

UEFA Avropa Liqasının mayın 29-da Bakı Olimpiya Stadionunda keçiriləcək final qarşılaşmasında Londonun "Arsenal" və "Çelsi" komandaları üz-üzə gələcəklər. Oyun saat 23:00-da başlayacaq.

# Yeni Azərbaycan Partiyasının qərargahında "Son iclas" filmi nümayiş etdirilib





Mayın 25-də Yeni Azərbaycan Partiyasının (YAP) qərargahında "Son iclas" filmi nümayiş etdirilib.

AZƏRTAC xəbər verir ki, əvvəlcə çıxış edən Baş nazirin müavini, YAP Sədrinin müavini-icra katibi Əli Əhmədov Azərbaycan Xalq Cümhuriyyətinin yaranma tarixindən, əldə etdiyi mühüm nailiyyətlərdən danışıb. "1918-ci ildə Azərbaycan xalqı yüzilliklər ərzində qəlbində yaşatdığı müstəqillik ideyalarını həyata keçirməyə nail oldu. Şərqdə ilk demokratik respublika Azərbaycanda elan edildi. İlk dəfə olaraq xalqımız yeni, müasir dövlətçilik ənənələrinə sahib çıxan dövlət qurmağa nail oldu. Azərbaycan Xalq Cümhuriyyəti qısa müddətdə üzərinə düşən vəzifələrin yerinə yetirilməsi, dövlət qurumlarının formalaşdırılması istiqamətində çox vacib işlər gördü. Təəssüf ki, Azərbaycan Xalq Cümhuriyyətinin ömrü uzun olmadı, 23 ay yaşadıqdan sonra süqut etdi"- deyə Əli Əhmədov vurğulayıb.

Müasir müstəqil Azərbaycan Respublikasının Cümhuriyyətin varisi olduğunu deyən Əli Əhmədov bildirib ki, bu gün ölkəmiz bütün sahələrdə inkişaf edir, beynəlxalq müstəvidə mövqelərini möhkəmləndirir. "Bugünkü Azərbaycan reallıqları hər bir azərbaycanlının mənafeyinə cavab verir. Azərbaycanın müstəqillik ideyaları yaşayır və inkişaf edir. Bu gün Azərbaycan dünyanın ən inkişaf edən dövlətlərindən biridir. Ölkəmizdə demokratik təsisatlar, insan hüquqları, söz və mətbuat azadlığı geniş şəkildə inkişaf edib. Bu mənada Azərbaycan dövləti və cəmiyyətimiz müasir dünyanın ayrılmaz tərkib hissəsindən birinə çevrilib. Azərbaycanda təhlükəsizlik tam təmin olunub. Hər bir vətəndaş ölkədə rahat yaşayır. Ölkəmiz mürəkkəb dünyada sabitlik adası kimi tanınır" - deyə Əli Əhmədov vurğulayıb.

Sonra "Son iclas" filmi nümayiş etdirilib.

# Vətəndaşların qəbulu keçirilib

Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşların qəbulunu keçirir, onların müxtəlif məsələlərlə bağlı müraciətlərinin, ərizə və şikayətlərinin müsbət həlli üçün müvafiq tədbir görürlər. Mayın 25-də Dövlət Gömrük Komitəsinin (DGK) rəhbərliyi Balakən, Zaqatala və Qax şəhərlərində bu bölgələrin sakinlərini, eləcə də həmin bölgələrdə məskunlaşan məcburi köçkünləri qəbul edib.

Komitənin Mətbuat və ictimaiyyətlə əlaqələr idarəsindən bildirilib ki, həmin gün Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyevin vətəndaş qəbulu Balakən şəhərində keçirilib. Qəbulda vətəndaşların yalnız gömrük məsələləri ilə bağlı müraciətləri dinlənilib. Müraciətlər əsasən gömrük orqanlarında işə qəbul və digər gömrük məsələləri ilə bağlı olub.

Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini, gömrük xidməti general-mayoru İsmayıl Hüseynov Zaqatala şəhərində, komitə sədrinin müavini, gömrük xidməti general-leytenantı Əsgər Abdullayev isə Qax şəhərində vətəndaşları qəbul ediblər. Qəbullar zamanı hər bir vətəndaşın müraciəti diqqətlə dinlənilib və qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli barədə müvafiq strukturların rəhbərlərinə tapşırıqlar verilib.

* * *

Vergilər nazirinin müavini Sahib Ələkbərov Qusar rayonundakı Vergi ödəyicilərinə xidmət mərkəzində Qusar, Quba və Xaçmaz rayonlarından olan vətəndaşları qəbul edib.

Vergilər Nazirliyinin Media və kommunikasiya mərkəzindən bildirilib ki, qəbulda vergiödəyicilərinin öz fəaliyyətlərini şəffaf şəkildə qurmalarına mane olan amillər, vergilərin hesablanması, ödənilməsi, e-qaimələrin tətbiqi, vergi borcları, vergi orqanlarında işlə təminat, vergi uçotu, eləcə də vergi inzibatçılığı sahəsində qarşılaşdıqları bir sıra məsələlər qaldırılıb.

Vətəndaşların müraciətləri dinlənilib, onların bəziləri yerindəcə həll olunub, digərləri barədə nazirliyin müvafiq strukturlarına aidiyyəti tapşırıqlar verilib.

* * *

Əmlak Məsələləri Dövlət Komitəsinin rəhbərliyi Şəki, Qax və Zaqatala rayonlarında vətəndaş qəbulu keçirib.

Komitə sədri Kərəm Həsənov mayın 25-də Şəki rayonunda vətəndaşları qəbul edib. Elə həmin gün komitə sədrinin müavinləri Rafiq Cəlilov Qax rayonunda, Rüstəm Şahbazov isə Zaqatala rayonunda vətəndaşlarla görüşüb.

Komitə sədri K.Həsənov və müavinləri tərəfindən qəbula gələn vətəndaşların bütün müraciətləri fərdi qaydada diqqətlə dinlənilib. Müraciətlərin ən qısa zamanda həlli ilə bağlı müvafiq struktur bölmələrinin rəhbərlərinə birbaşa tapşırıqlar verilib. Bildirilib ki, göstərilən xidmətlərdə vətəndaşlara yüksəksəviyyəli və layiqli münasibət göstərilməli, hər bir vətəndaşın müraciəti operativ və əhatəli formada cavablandırılmalıdır.

ƏMDK-nın struktur bölmələrinin rəhbərlərinin də iştirak etdiyi qəbullarda ünvanlanan müraciətlər daşınmaz əmlakın qeydiyyatı, torpaqların faktiki istifadə qaydaları, ölçülərinin müəyyən olunması ilə bağlı olub. Eyni zamanda, dövlət əmlaklarının özəlləşdirilməsi və icarəyə götürülməsi, hərraclarda iştirak kimi məsələlərə dair müraciətlər də səsləndirilib. Bəzi müraciətlər elə qəbul zamanı öz müsbət həllini tapıb. Bölgələr üzrə keçirilən qəbullarda komitənin səlahiyyətinə aid olmayan məsələlər qeydiyyata alınıb, müvafiq qurumlara göndərilməsi ilə bağlı vətəndaşlara məlumat verilib.

***AZƏRTAC***

# *Leyla ABDULLAYEVA:* "Monoetnik ölkə olan Ermənistanın Azərbaycanı irqçilikdə ittiham etməsi absurddur"

Xarici İşlər Nazirliyinin mətbuat katibi Leyla Abdullayeva CNN telekanalının idman müxbirinin Bakıda keçiriləcək UEFA Avropa Liqasının final oyununda "Arsenal" futbol klubunun oyunçusunun iştirak etməməsi və Ermənistan XİN-in mövqeyi ilə bağlı ünvanladığı sualı cavablandırıb.

Bu barədə AZƏRTAC-a XİN-in mətbuat xidmətindən məlumat verilib. Mətbuat katibi Azərbaycanın final oyununda iştirak edəcək bütün oyunçuların, eləcə də pərəstişkarların təhlükəsizliyini tam təmin edəcəyi barədə ölkəmizin müvafiq rəsmi qurumları və Azərbaycan Futbol Assosiasiyası tərəfindən UEFA-ya təminatın verildiyini bildirib və bu barədə XİN-in sözçüsü səviyyəsində "idman və siyasət bir-birindən ayrıdır" mövqeyinin dəfələrlə bəyan edildiyini xatırladıb. Leyla Abdullayeva bildirib ki, Ermənistan XİN-in bu məsələ ilə bağlı açıqlama ilə çıxış etməsi bu ölkənin daxili siyasi problemləri səbəbindən idmanı siyasi alət kimi istifadə etdiyinin göstəricisidir. Mətbuat katibi deyib: "Azərbaycanın işğal olunmuş ərazilərində etnik təmizləmə həyata keçirən, monoetnik ölkə olan Ermənistanın Azərbaycanı irqçilikdə ittiham etməsi absurddur. Azərbaycan bütün dünyada dözümlülük və multikulturalizm ənənələri ilə tanınır".

XİN-in sözçüsü qeyd edib ki, Ermənistanın Bakıda keçiriləcək futbol oyunu ilə bağlı şərhi bu ölkənin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə aparılan danışıqlara mənfi təsir etmək və hətta münaqişənin həlli üzrə substantiv danışıqları təxirə salmaq üçün hər bir imkandan istifadə etmək cəhdidir.

## Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində və Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının aşağıdakı məcəllələrini "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Əmək Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 4, maddə 213; 2001, № 3, maddə 143, № 6, maddə 362, № 11, maddələr 672, 679, № 12, maddə 731; 2002, № 1, maddə 2, № 5, maddə 241, № 6, maddə 328; 2003, № 1, maddələr 9, 23; 2004, № 1, maddə 10, № 2, maddə 57, № 3, maddə 133, № 6, maddə 413, № 7, maddə 505, № 9, maddə 672, № 12, maddə 981; 2005, № 3, maddə 151, № 4, maddə 278, № 7, maddə 560, № 10, maddə 874, № 11, maddə 1001, № 12, maddə 1094; 2006, № 3, maddələr 220, 222, № 5, maddə 385, № 11, maddə 923, № 12, maddələr 1004, 1025, 1030; 2007, № 5, maddələr 401, 437, № 6, maddə 560, № 8, maddə 756, № 11, maddələr 1049, 1053; 2008, № 3, maddə 156, № 7, maddələr 600, 602, № 10, maddə 887, № 11, maddə 960; 2009, № 2, maddə 48, № 5, maddə 294, № 6, maddə 399, № 12, maddələr 949, 969; 2010, № 2, maddələr 70, 75, № 4, maddə 275; 2011, № 1, maddə 11, № 2, maddələr 70, 71, № 6, maddə 464, № 7, maddə 598; 2012, № 11, maddə 1054; 2013, № 2, maddələr 89, 101, № 11, maddə 1268; 2014, № 2, maddə 92, № 10, maddə 1162, № 11, maddə 1339, № 12, maddə 1527; 2015, № 2, maddə 97, № 3, maddə 250, № 6, maddə 680; 2016, № 2 (I kitab), maddələr 190, 201, № 5, maddə 847, № 11, maddə 1767; 2017, № 6, maddələr 1031, 1048, № 12 (I kitab), maddələr 2187, 2189; 2018, № 1, maddə 13, № 6, maddə 1155, № 7 (I kitab), maddələr 1380, 1408, № 12 (I kitab), maddə 2532; Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1418-VQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 66-cı maddənin on ikinci abzasına, 67-2-ci maddənin adına və 1-ci hissəsinə, 70-ci maddənin "Qeyd"inə "ümumi təhsil" sözlərindən sonra "və peşə təhsili (tam orta təhsil üzrə təhsilverənlərə münasibətdə)" sözləri əlavə edilsin;

1.2. 124-cü maddənin 6-cı hissəsində "məktəblərində, peşə liseylərində" sözləri "təhsili müəssisələrində" sözləri ilə əvəz edilsin.

**Maddə 2.** Azərbaycan Respublikasının Vergi Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (I kitab), maddə 583; 2001, № 7, maddə 454, № 9, maddə 576, № 12, maddə 734; 2002, № 5, maddə 249, № 12, maddə 707; 2003, № 8, maddə 425, № 12 (I kitab), maddə 671; 2004, № 1, maddə 1, № 11, maddə 887, № 12, maddə 980; 2005, № 2, maddə 61, № 8, maddə 688, № 12, maddə 1081; 2006, № 12, maddələr 1005, 1026; 2007, № 1, maddə 4, № 6, maddə 597, № 8, maddə 745, № 11, maddə 1053, № 12, maddə 1192; 2008, № 7, maddə 602, № 11, maddə 960; 2009, № 7, maddə 506; 2011, № 1, maddə 14, № 7, maddələr 588, 603, № 12, maddə 1115; 2012, № 6, maddələr 500, 513, № 7, maddə 652, № 9, maddə 841, № 12, maddə 1226; 2013, № 2, maddə 91, № 4, maddə 366, № 11, maddə 1278, № 12, maddələr 1483, 1486, 1495; 2014, № 2, maddələr 94, 98, № 6, maddə 608, № 7, maddə 770, № 8, maddə 957, № 10, maddə 1158, № 12, maddə 1525; 2015, № 1, maddə 11, № 12, maddə 1433; 2016, № 2 (I kitab), maddə 207, № 3, maddələr 396, 402, № 5, maddə 848, № 6, maddələr 973, 974, 1015, № 7, maddə 1245, № 10, maddə 1603, № 11, maddələr 1752, 1792, 1793, № 12, maddələr 2001, 2037, 2046; 2017, № 2, maddə 146, № 5, maddələr 695, 723, 737, № 6, maddə 1055, № 7, maddə 1304, № 8, maddə 1509, № 12 (I kitab), maddələr 2219, 2251, 2270; 2018, № 2, maddə 149, № 5, maddə 863, № 6, maddə 1193, № 7 (I kitab), maddələr 1414, 1427, № 10, maddə 1962, № 11, maddələr 2186, 2210, № 12 (I kitab), maddələr 2498, 2509; Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1413-VQD nömrəli Qanunu) 102.6.2-ci maddəsindən "texniki-peşə məktəblərinin şagirdləri," sözləri çıxarılsın.

**Maddə 3.** Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 586, № 12, maddə 835; 2001, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddələr 237, 240, 244, № 8, maddə 463; 2004, № 6, maddə 399; 2005, № 4, maddə 278; 2006, № 11, maddə 929; 2007, № 8, maddə 756, № 11, maddə 1049, № 12, maddələr 1197, 1218; 2008, № 6, maddə 462, № 7, maddələr 602, 607; 2010, № 3, maddə 171, № 4, maddə 275, № 7, maddə 591; 2011, № 2, maddələr 70, 71, № 6, maddə 473, № 7, maddə 600, № 12, maddə 1107; 2012, № 5, maddə 406, № 11, maddələr 1056, 1063; 2013, № 8, maddə 889; 2015, № 10, maddə 1107, № 11, maddə 1271; 2016, № 6, maddələr 981, 1000; 2017, № 6, maddə 1058, № 12 (I kitab), maddə 2268; 2018, № 5, maddə 881, № 7 (I kitab), maddə 1422, № 10, maddələr 1971, 1978, № 11, maddə 2225) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 8.2.5-ci maddədə, XII fəslin və 100-cü maddənin adında, 100.1, 100.2, 100.3-cü maddələrdə, 100.4-cü maddənin birinci cümləsində, 100.5-ci və 100.6-cı maddələrdə, 119.3-cü maddənin birinci cümləsində və 130.2-ci maddədə "ilk peşə-ixtisas" sözləri "peşə" sözü ilə əvəz edilsin;

3.2. 100.7-ci maddədə "İlk peşə-ixtisas" sözləri "Peşə" sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 mart 2019-cu il*

## "Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində və Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1551-VQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində və Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1551-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində və Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində və Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 may 2019-cu il*

## "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq və "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununu "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

"Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 9, maddə 684; 2011, № 2, maddə 70; 2014, № 1, maddə 3; 2015, № 11, maddə 1266; 2016, № 1, maddə 41, № 11, maddə 1766; 2017, № 2, maddə 145, № 5, maddə 691, № 7, maddələr 1277, 1300, № 12 (I kitab), maddə 2202; 2018, № 7 (I kitab), maddələr 1381, 1409, № 11, maddə 2208) aşağıdakı dəyişikliklər edilsin:

1. 1.0.6-cı, 1.0.6-1-ci, 29.0.29-cu, 29.0.43-cü və 33.3.9-cu maddələrə, 36-2-ci maddənin adına, 36-2.1-ci, 36-2.2-ci və 36-2.4-cü maddələrə "ümumi təhsil" sözlərindən sonra "və peşə təhsili (tam orta təhsil üzrə təhsilverənlərə münasibətdə)" sözləri əlavə edilsin.

2. 1.0.40-cı maddəyə "orta ixtisas" sözlərindən əvvəl "yüksək texniki peşə təhsili səviyyəsində və" sözləri əlavə edilsin.

3. 2-ci maddəyə "Məktəbəqədər təhsil haqqında" sözlərindən sonra ", "Peşə təhsili haqqında" sözləri əlavə edilsin və həmin maddədə "Qanunundan" sözü "qanunlarından" sözü ilə əvəz edilsin.

4. 14.5.4-cü maddədə "ilk peşə-ixtisas" sözləri "peşə" sözü ilə və "və tədris mərkəzləri (kompleksləri)" sözləri "mərkəzləri" sözü ilə əvəz edilsin.

5. 14.8-1-ci maddədə "və orta ixtisas" sözləri ", orta ixtisas və peşə" sözləri ilə əvəz edilsin.

6. 17.1.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

"17.1.3. Peşə təhsili:

17.1.3.1. ilk peşə təhsili;

17.1.3.2. texniki peşə təhsili;

17.1.3.3. yüksək texniki peşə təhsili.".

7. 19.6-cı, 29.0.25-ci və 35.2-ci maddələrdə "ilk peşə-ixtisas" sözləri "peşə" sözü ilə əvəz edilsin.

8. 20-ci maddənin adında və 20.3-cü maddədə "İlk peşə-ixtisas" sözləri "Peşə" sözü ilə əvəz edilsin.

9. 20.1-ci maddədə "İlk peşə-ixtisas" sözləri "Peşə" sözü ilə əvəz edilsin və həmin maddədən "sənətlər və kütləvi" sözləri çıxarılsın.

10. 20.2-ci maddədə "İlk peşə-ixtisas" sözləri "Peşə" sözü ilə, "asılı olmayaraq" sözlərindən sonrakı "peşə-ixtisas" sözləri "peşə" sözü ilə əvəz edilsin və həmin maddədən "və məzunlara müvafiq istiqamətlər üzrə ilk peşə-ixtisas dərəcələrinin verilməsi ilə başa çatır" sözləri çıxarılsın.

11. Aşağıdakı məzmunda 20.2-1-ci və 20.2-2-ci maddələr əlavə edilsin:

"20.2-1. Peşə təhsilinin səviyyələri aşağıdakılardır:

20.2-1.1. ilk peşə təhsili;

20.2-1.2. texniki peşə təhsili;

20.2-1.3. yüksək texniki peşə təhsili.

20.2-2. İlk peşə təhsilini bitirən məzunlara ilk, texniki peşə təhsilini bitirən məzunlara texniki, yüksək texniki peşə təhsilini bitirən məzunlara isə subbakalavr peşə-ixtisas dərəcəsi verilir.".

12. 20.4-cü maddədə "İlk peşə-ixtisas" sözləri "Peşə" sözü ilə əvəz edilsin, həmin maddəyə "qəbul olunanlar" sözlərindən sonra "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq," sözləri əlavə edilsin.

13. Aşağıdakı məzmunda 20.5-ci maddə əlavə edilsin:

"20.5. Azərbaycan Respublikasında peşə təhsilinin hüquqi, iqtisadi və təşkilati əsasları bu Qanun və "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.".

14. 29.0.9-cu maddədən "şagird və" sözləri çıxarılsın.

15. 32.3.14-cü maddədə "peşə-ixtisas təhsili pilləsində" sözləri "ixtisas təhsili pilləsində, peşə təhsili" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 mart 2019-cu il*

## "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1553-VQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1553-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Azərbaycan Respublikasının Dövlət himni haqqında” Azərbaycan Respublikasının 1992-ci il 27 may tarixli 142 nömrəli Qanununun ləğvi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 may 2019-cu il*

## “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Konstitusiya Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 156-cı maddəsini rəhbər tutaraq **qərara alır:**

“Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikası Konstitusiya Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 2, maddə 69; 2016, № 10, maddə 1600; 2018, № 7 (I kitab), maddə 1396, № 12, (I kitab), maddə 2513) 29.2-ci maddəsində “Bir” sözü “Ad və ya rəqəm dəyişiklikləri ilə əlaqədar bir neçə normativ hüquqi aktlara dəyişikliklərin edilməsi və ya bir neçə normativ hüquqi aktın ləğv edilməsi zərurətinin yarandığı hallar istisna olmaqla, bir” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 may 2019-cu il*

## “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 3 may tarixli 1570-VKQD nömrəli Konstitusiya Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 3 may tarixli 1570-VKQD nömrəli Konstitusiya Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Konstitusiya Qanununun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Konstitusiya Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Konstitusiya Qanununa uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Konstitusiya Qanununa uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Konstitusiya Qanunundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Konstitusiya Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 may 2019-cu il*

## Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 391 nömrəli fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2018-ci il 12 oktyabr tarixli 1271-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 391 nömrəli fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 4, maddə 323, № 12, maddə 1034; 2007, № 11, maddə 1105, № 12, maddə 1246; 2009, № 7, maddə 533, № 8, maddə 627, № 10, maddə 773, № 12, maddələr 983, 988; 2010, № 2, maddə 83, № 4, maddə 292, № 11, maddə 966; 2011, № 1, maddə 18, № 2, maddə 85, № 4, maddə 281, № 6, maddə 497, № 10, maddə 894, № 11, maddə 993; 2012, № 10, maddə 950; 2014, № 6, maddə 627, № 7, maddə 820, № 9, maddə 1029; 2016, № 1, maddə 77; 2017, № 2, maddə 184, № 10, maddə 1784; 2018, № 6, maddə 1205, № 7 (I kitab), maddə 1480; 2019, № 3, maddə 431) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə”də aşağıdakı dəyişikliklər edilsin:

1. 9.25-ci yarımbəndə “cəzaları” sözündən sonra “, həmçinin Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinə əsasən icrası və ya icrası üzərində nəzarət icra məmurlarına həvalə edilmiş cinayət-hüquqi xarakterli digər tədbirləri (bundan sonra - müvafiq cinayət-hüquqi xarakterli tədbirlər)” sözləri və “, cəzaların” sözündən sonra (birinci halda) “və müvafiq cinayət-hüquqi xarakterli tədbirlərin” sözləri əlavə edilsin.

2. 9.26-cı yarımbəndə “cəzaların” sözündən sonra “və müvafiq cinayət-hüquqi xarakterli tədbirlərin” sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 may 2019-cu il*

## “Azərbaycan Respublikası diplomatik xidmət orqanlarının 100 illiyi (1919-2019)” Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 9-cu bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, № 23, maddə 996; 1993, № 23-24, maddə 676; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 5, maddə 251; 2003, № 12 (I kitab), maddə 677; 2005, № 4, maddə 291; 2006, № 10, maddə 846; 2007, № 3, maddə 213; 2008, № 6, maddələr 452, 472; 2009, № 1, maddə 4, № 5, maddə 312, № 7, maddələr 514, 515, № 12, maddə 974; 2010, № 3, maddə 174, № 11, maddə 960; 2011, № 11, maddə 992; 2012, № 7, maddə 664, № 11, maddələr 1036, 1048, 1061; 2013, № 5, maddələr 460, 478, № 10, maddə 1143, № 12, maddə 1477; 2014, № 6, maddələr 612, 623; 2015, № 12, maddə 1447; 2016, № 12, maddələr 1979, 2040; 2017, № 1, maddələr 16, 27, № 7, maddə 1311, № 10, maddə 1771, № 11, maddə 1962, № 12 (I kitab), maddələr 2242, 2269; 2018, № 2, maddə 168, № 3, maddə 387, № 5, maddələr 841, 859, 874, № 6, maddə 1190, № 11, maddə 2207, № 12 (I kitab), maddələr 2465, 2516; Azərbaycan Respublikasının 2019-cu il 1 fevral tarixli 1465-VQD nömrəli Qanunu) 2-ci maddəsində “Azərbaycan Respublikası diplomatik xidmət orqanlarının 90 illiyi (1919-2009)” yubiley medalı;” hissəsindən sonra aşağıdakı məzmunda yeni hissə əlavə edilsin:

“Azərbaycan Respublikası diplomatik xidmət orqanlarının 100 illiyi (1919-2019)” yubiley medalı;”.

**Maddə 2.** “Azərbaycan Respublikası diplomatik xidmət orqanlarının 100 illiyi (1919-2019)” Azərbaycan Respublikasının yubiley medalı haqqında Əsasnamə” təsdiq edilsin (əlavə olunur).

**Maddə 3.** “Azərbaycan Respublikası diplomatik xidmət orqanlarının 100 illiyi (1919-2019)” Azərbaycan Respublikasının yubiley medalının təsviri” təsdiq edilsin (əlavə olunur).

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 mart 2019-cu il*

## “Azərbaycan Respublikası diplomatik xidmət orqanlarının 100 illiyi (1919-2019)” Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1533-VQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Azərbaycan Respublikası diplomatik xidmət orqanlarının 100 illiyi (1919-2019)” Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1533-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Azərbaycan Respublikası diplomatik xidmət orqanlarının 100 illiyi (1919-2019)” Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. “Azərbaycan Respublikası diplomatik xidmət orqanlarının 100 illiyi (1919-2019)” Azərbaycan Respublikasının yubiley medalı ilə təltif etmək səlahiyyəti Azərbaycan Respublikasının xarici işlər nazirinə verilsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Azərbaycan Respublikası diplomatik xidmət orqanlarının 100 illiyi (1919-2019)” Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 may 2019-cu il*

Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1533-VQD nömrəli Qanunu ilə təsdiq edilmişdir

## “Azərbaycan Respublikası diplomatik xidmət orqanlarının 100 illiyi (1919-2019)” Azərbaycan Respublikasının yubiley medalı haqqında Əsasnamə

**Maddə 1. Təltif edilən şəxslər**

“Azərbaycan Respublikası diplomatik xidmət orqanlarının 100 illiyi (1919-2019)” Azərbaycan Respublikasının yubiley medalı ilə Azərbaycan Respublikasının diplomatik xidmət orqanlarında vəzifələrini nümunəvi yerinə yetirən, diplomatik xidmətdə yüksək nəticələr əldə edən diplomatik xidmət əməkdaşları, diplomatik xidmət orqanlarının inzibati-texniki xidmətini həyata keçirən şəxslər, diplomatik xidmət orqanlarının veteranları, habelə Azərbaycan Respublikasının beynəlxalq əlaqələrinin inkişaf etdirilməsində fəal iştirak edən və diplomatik xidmət orqanlarının inkişafında xüsusi xidmətləri olan digər şəxslər təltif edilirlər.

**Maddə 2. Təltif edən orqan**

“Azərbaycan Respublikası diplomatik xidmət orqanlarının 100 illiyi (1919-2019)” Azərbaycan Respublikasının yubiley medalı ilə bu Əsasnamənin 1-ci maddəsində göstərilən şəxslər Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndinə uyğun olaraq təltif edilirlər.

**Maddə 3. Taxılma qaydası**

“Azərbaycan Respublikası diplomatik xidmət orqanlarının 100 illiyi (1919-2019)” Azərbaycan Respublikasının yubiley medalı döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda, onlardan sonra taxılır.

Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli Qanunu ilə təsdiq edilmişdir

## “Azərbaycan Respublikası diplomatik xidmət orqanlarının 100 illiyi (1919-2019)” Azərbaycan Respublikasının yubiley medalının təsviri

**Maddə 1. Medalın ümumi təsviri**

“Azərbaycan Respublikası diplomatik xidmət orqanlarının 100 illiyi (1919-2019)” Azərbaycan Respublikasının yubiley medalı (bundan sonra - medal) diametri 36 mm olan, qızıl suyuna çəkilmiş dairəvi bürünc lövhədən ibarətdir.

**Maddə 2. Medalın ön tərəfi**

2.1. Medalın ön tərəfi iki çevrə ilə konturlanmışdır. Xarici və daxili çevrələrin arasında yuxarı qövs boyunca “AZƏRBAYCAN RESPUBLİKASI” sözləri, aşağı qövs boyunca “DİPLOMATİK XİDMƏT ORQANLARI” sözləri yazılmışdır. Yazıların arasında, sol və sağ tərəflərdə səkkizguşəli ulduz yerləşdirilmişdir. Ulduzların hər iki yazıya tərəf kompozisiyanı tamamlayan xətlər vardır.

2.2. Medalın daxili çevrəsində Yer kürəsi təsvirini əks etdirən meridianlar və paralellər təsvir edilmişdir. Yer kürəsi təsvirinin üst hissəsində “100” rəqəmləri, həmin təsvirdən sol tərəfdə “1919”, sağ tərəfdə “2019” rəqəmləri yazılmışdır. Daxili çevrənin aşağı hissəsində, sol və sağ tərəflərə doğru qövs boyunca palıd yarpaqlarından ibarət çələng yerləşir. Yer kürəsi təsvirinin sol yarımkürəsinin yuxarı hissəsində üzərinə Azərbaycan Respublikası Dövlət bayrağının rənglərinə uyğun mavi, qırmızı və yaşıl mina çəkilmiş üç qövsvarı zolaq vardır. Medalın ön tərəfində bütün yazılar və təsvirlər relyefli olaraq qabarıqdır.

**Maddə 3. Medalın arxa tərəfi**

3.1. Medalın arxa tərəfinin yuxarı hissəsində “AZƏRBAYCAN RESPUBLİKASI” sözləri, mərkəzində “XARİCİ İŞLƏR NAZİRLİYİ” sözləri yazılmışdır.

3.2. Medalın arxa tərəfinin aşağı hissəsində medalın seriyası və nömrəsi həkk olunmuşdur.

3.3. Medalın arxa tərəfinin səthi hamar, yazılar isə relyefli olaraq qabarıqdır.

**Maddə 4. Medalın elementləri**

4.1. Medal paltara bərkidilmək üçün elementi olan, 37 mm x 55 mm ölçüdə xara lentə iki halqa və ilgək vasitəsilə birləşdirilir.

4.2. Tünd göy rəngdə xara lentin mərkəzində hər birinin eni 2,5 mm olmaqla, Azərbaycan Respublikası Dövlət bayrağının rənglərini əks etdirən yaşıl, qırmızı və mavi rənglərdə şaquli zolaqlar təsvir edilmişdir. Yaşıl zolağın sol, mavi zolağın sağ kənarında eni 1,5 mm olan qızılı şaquli zolaq vardır.

4.3. Xara lentin yuxarı hissəsinə üzərində ölçüsünə görə mərkəzdən kənarlara doğru kiçilən beş ədəd relyefli səkkizguşəli ulduz təsvir edilmiş, qızıl suyuna çəkilmiş 40 mm x 5,5 mm ölçülü bürünc lövhə bərkidilir.

4.4. Xara lentin aşağı hissəsinə üzərində relyefli aypara, ulduz və palıd yarpaqlarından ibarət çələng təsvir edilmiş, qızıl suyuna çəkilmiş, mərkəz hissədə eni 5,5 mm olmaqla, 40 mm x 7,8 mm ölçülü bürünc lövhə bərkidilir.

4.5. Medala paltarın yaxasına bərkidilmək üçün elementi olan, eyni xara lentdən üz çəkilmiş 37 mm x 10 mm ölçülü qəlib əlavə edilir.

“Azərbaycan Respublikası diplomatik xidmət orqanlarının 100 illiyi (1919-2019)” Azərbaycan Respublikasının yubiley medalı




## Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv dövlətlərin gömrük idarələri arasında gömrük hüquqpozmalarına qarşı mübarizə sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumunun təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv dövlətlərin gömrük idarələri arasında gömrük hüquqpozmalarına qarşı mübarizə sahəsində əməkdaşlığa dair 2019-cu il martın 11-də Astana şəhərində imzalanmış Anlaşma Memorandumu təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Anlaşma Memorandumu qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Katibliyinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 may 2019-cu il*

### Azərbaycan Prezidentinin köməkçisi Əli HƏSƏNOV:

# "Azərbaycan-İsrail strateji münasibətləri bütün regionda sülhə və təhlükəsizliyə xidmət edir"

Müasir mərhələdə Azərbaycan ilə İsrailin qarşılıqlı münasibətləri, o cümlədən Azərbaycan neftinin İsrail dövlətinə böyük həcmdə ixracı, iki ölkə arasında sıx hərbi-texniki əməkdaşlıq məsələləri möhkəm strateji xarakter daşıyır. İki dövlətin münasibətlərində insan amili də mühüm rol oynayır. Xalqlarımız arasında əsrlərboyu yaxşı, səmimi münasibətlər formalaşıb.

AZƏRTAC xəbər verir ki, bu yaxınlarda Odlar Diyarında səfərdə olmuş israilli jurnalist Daniel Tsemax İsrailin nüfuzlu İ24 telekanalında İsrail ilə Azərbaycan arasında münasibətlərin indiki səviyyəsi barədə danışıb.

İsrailli jurnalist deyir: "Azərbaycan müdafiə nazirinin müavini Kərim Vəliyev İsrail-Azərbaycan münasibətlərinin səmimi xarakterini vurğulayaraq bizi - israilli jurnalistləri "Şalom ma nişma" sözləri ilə qarşıladı. Həqiqətən bu münasibətlər o dərəcədə səmimi və yaxındır ki, müdafiə nazirinin müavini israilli jurnalistləri öz dəftərxanasında qəbul edirdi.

Biz Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov ilə də görüşdük. O dedi: "Mənim fikrimcə, Azərbaycan-İsrail dövlətlərarası münasibətlərini başqa ölkələr üçün yaxşı nümunə hesab etmək olar. İslam dünyasının bir hissəsi olan Azərbaycan bu gün həm İsrail ilə, həm də dünyanın bir sıra başqa ölkələri ilə çox yaxşı, etimada əsaslanan konstruktiv münasibətlər yaradıb".

D.Tsemax öz süjetində qeyd edir ki, əhalisinin əksəriyyəti müsəlmanlar olan Azərbaycan sülhsevər ölkədir. Bu ölkənin, eyni zamanda, həm qardaş Türkiyə ilə müttəfiqlik münasibətləri, həm İranla, həm də İsrail ilə səmimi dostluq münasibətləri Azərbaycan rəhbərliyinin incə, çoxvektorlu xarici siyasətini təsdiq edir.

Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi professor Əli Həsənov: "İsrail ilə bizim xüsusi strateji münasibətlərimiz var. Azərbaycan-İsrail strateji münasibətləri bütün regionda sülhə və təhlükəsizliyə xidmət edir. Bizim yüksək səviyyəli siyasi dialoqumuz, sabit iqtisadi əlaqələrimiz var. İsrail ilə hərbi-texniki əməkdaşlıq sayəsində biz İsraildən ən müasir hərbi texnologiyaları alırıq, bu isə bizim hərbi qüdrətimizi möhkəmlətməyə imkan verir".

Daniel Tsemax qeyd edir ki, Azərbaycan İsraili dünyada özünün dörd mühüm strateji tərəfdaşından biri hesab edir. Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov vurğulayıb: "İsrail bizim hərbi sənaye kompleksinin inkişafında fəal iştirak edib. Biz İsrail xalqını və İsrail dövlətini yüksək qiymətləndiririk və onlara hörmət edirik. Biz bütün sahələrdə Azərbaycan-İsrail münasibətlərinin möhkəmləndirilməsi və dərinləşdirilməsi üzərində işi bundan sonra da davam etdirəcəyik".

Azərbaycan müdafiə nazirinin müavini Kərim Vəliyev jurnalistlərlə söhbətində vurğulayıb ki, Azərbaycanın arsenalında hava hücumundan müdafiə sistemindən başlamış pilotsuz uçuş aparatlarına qədər müasir İsrail silahları var. Bu yaxınlarda Ermənistanla silahlı münaqişədə Azərbaycan həmin silahlardan fəal şəkildə və uğurla istifadə edib.

General Kərim Vəliyev deyib: "Ermənistan ilə münaqişənin həll edilməməsi səbəbindən biz torpaqlarımızı işğaldan azad etməyə hazırlığı davam etdirməyə məcburuq. Doğrudur, qan tökülməsini heç kəs istəmir, lakin Ali Baş Komandan əmr verən kimi biz həmişə torpaqlarımızı azad etməyə hazırıq".

Qeyd etmək lazımdır ki, sonuncu Aprel döyüşləri zamanı Azərbaycan İsrailin hərbi texnologiyalarından real olaraq və uğurla istifadə edib.

Daniel Tsemax İsrailin nüfuzlu İ24 xəbər telekanalında İsrail-Azərbaycan münasibətlərinə həsr olunmuş süjetin sonunda deyir: "Bu gün Azərbaycan ilə İsrail arasında münasibətlər bütün istiqamətlər üzrə uğurla inkişaf edir. Artıq neçə ildir ki, israilli mütəxəssislər Azərbaycanda iqtisadiyyatın müxtəlif sahələrində, o cümlədən kənd təsərrüfatı, aqrosənaye kompleksi və sənaye sahələrində çalışır, ən yeni texnologiya və avadanlığı tətbiq edirlər. Azərbaycan İsrail üçün çox böyük geostrateji və geosiyasi əhəmiyyət kəsb edir".



# Yerlə göy arasında



Foto Aleksey PİVOVAROVUNDUR (İtaliya)

İtaliyalı fotoqraf Aleksey Pivovarov Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təsisçisi və baş redaktoru olduğu "Bakı" jurnalı ilə əməkdaşlıq edir. Aleksey 12 ildir Azərbaycana gəlib-gedir. Demək olar ki, bütün ölkəni şimaldan cənuba və şərqdən qərbə qarış-qarış gəzib, çoxsaylı insanlarla tanış olub, qəribə taleləri, istedad sahiblərini, müxtəlif insanları və təbiətimizin əsrarəngiz mənzərələrini kamerasının yaddaşına köçürüb, "Bakı" jurnalı üçün saysız fotoreportajlar hazırlayıb.

A.Pivovarov milliyyətcə rusdur. Rusiyada doğulub təhsil alsa da, gənc yaşlarından İtaliyaya köçüb və artıq 20 ilə yaxındır ki, orada yaşayır. Maraqlı tərcümeyi-halın sahibidir. Ömrünün dörd ilini Hindistanda yaşayıb, birinci qızı Misirdə Qırmızı dənizin sahilində anadan olub: "Biz orada Sinay yarımadasında bədəvilərin arasında yaşayırdıq. Qaldığımız evin həndəvərində bədəvilərin qoyun və keçi sürülərinin yataqları var idi. Rəvayətə görə, İsa Məsih də bədəvi kəndində anadan olub".

Aleksey təbiətən sakit, əqidəcə tolerant insandır, sadədir, aza qane olandır da demək olar, çünki vegetariandır. Münasibətlərində çalışır ki, heç kimə çətinlik yaratmasın, nəzakətlidir, qətiyyən səsini qaldırmır, pəsdən danışır, tonunu dəyişmir. Həmişə eyni tərzdə sakit və nikbin görünür. Ətrafındakı insanlarla rəğbətlə davranır, reportajlarının qəhrəmanları sonralar dostlarına çevrilirlər.

Onun bir neçə gün boş vaxtının olduğunu nəzərə alaraq redaksiyamızın əməkdaşları ilə bir neçə mövzunu birlikdə işləməyi, bir növ, təcrübə mübadiləsi aparmağı təklif etdik. Aleksey məmnuniyyətlə razılıq verdi, təmənnasız əməkdaşlıq edəcəyini bildirdi.

Biz yolumuzu dağlara saldıq, Qubaya getdik, bir neçə mövzunu birlikdə işlədik, gecəni Haput kəndində keçirdik, bir daha xalqımızın qonaqpərvərliyinin şahidi olduq. Aleksey deyir ki, dünyada azərbaycanlılar kimi qonaqpərvər xalqlar çoxdur: "Qonaq Qafqaz dağlarında da, Himalayda da qonaqdır. Amma azərbaycanlılar seçilirlər. Əslində qonaq gedən insandan da çox şey asılıdır - insani dəyərlərə qiymət verən hər bir kəs müəyyən etik çərçivələri gözləyir, çalışır ki, ev sahibinə yük olmasın. Zənnimcə, azərbaycanlılar da qonaq gedəndə belə hərəkət edirlər".

Haput kəndində iki gün qaldıq. Aleksey birinci gün xeyli şəkil çəkdi. Səhərisi isə biz oyananda artıq o, yerində yox idi, peşəkar fotoqraf kimi günəş doğar-doğmaz fotokameralarını götürüb dağlarda sübh çəkilişinə getmişdi. Qayıdanda atların rəqsinin fotosunu göstərdi. Bizi qardaşının evində qonaq saxlayan Mübariz müəllim şəklə baxan kimi atları tanıdı: "Minilməyən atlardı. Biri kəndin bir tərəfində, digəri də bir neçə ev o yanda qalır. Hər səhər sahibləri onları alaqaranlıqdan açıb otlağa buraxır, onlar da kəndin ortasındakı dikdə beləcə görüşüb atılıb-düşürlər".

Aleksey isə işində qeyri-adi bir şey görmədi, sadəcə onu dedi ki, əgər sən dan yeri söküləndən günəş qüruba gedənədək işləyirsənsə, mütləq bir neçə maraqlı şəklin olmalıdır. Foto işinin xüsusiyyəti belədir.

Biz geri dönəndə italiyalı fotoqrafın uğuruna sevinirdik, o isə sakitcə maşının pəncərəsindən dağları seyr edərək növbəti mövzunu axtarırdı.

**Bahadur İMANQULİYEV,**
**Akif ƏLİYEV,**
**"Azərbaycan"**

# ABŞ-dan İlham Əliyevin islahatlar kursuna tam dəstək

Əvvəli 1-ci səh.

Məsələn, Özbəkistan Prezidenti Şavkat Mirziyoyev təbrikində "Sizin müdrik rəhbərliyinizlə Azərbaycanın sosial-siyasi həyatında reallaşdırılan əsaslı islahatları, ölkənizin iqtisadi potensialının və nüfuzunun artırılması işində qazanılan sanballı uğurları məmnuniyyətlə müşahidə edirik" yazır.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da ölkəmizin uğurlarının davamlılığını məhz İlham Əliyev amili ilə əlaqələndirir: "Dost və qardaş Azərbaycanın müstəqilliyini bərpa etməsindən bu günə qədər keçən müddət ərzində bütün sahələrdə qazandığı böyük uğurlar Türkiyə üçün də qürur mənbəyidir. Uzaqgörən liderliyiniz sayəsində Azərbaycanın bu nailiyyətlərinin artaraq davam edəcəyinə inamımız qətidir".

Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qani isə "İnanıram ki, Azərbaycan Respublikası sizin müdrik rəhbərliyinizlə daha böyük inkişafa nail olacaqdır" yazır.

Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev "Bu gün Azərbaycan rəqabətqabiliyyətli, dinamik inkişaf edən dövlət kimi iqtisadi, sosial və mədəni-humanitar sahələrdə nailiyyətləri ilə dünya birliyində layiqli yer tutur. Bununla əlaqədar olaraq arzu edirəm ki, ölkəniz sizin rəhbərliyiniz ilə daha intensiv inkişaf etsin və xoş məramlarına çatsın", Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisi "Xalqınızın ümid və arzularının həyata keçirilməsində sizin uğurlarınızın davamlı olmasını ürəkdən arzulayıram" səmimi arzularını çatdırırlar.

İslam Əməkdaşlıq Təşkilatının Baş katibi Yusif bin Əhməd əl-Useymin İlham Əliyevin qlobal miqyasda islam həmrəyliyinə verdiyi töhfələri yüksək, əvəzsiz qiymətləndirir: "Əminəm ki, zati-aliniz üzv ölkələrin xalqları arasında əməkdaşlığın və islam həmrəyliyinin möhkəmləndirilməsinə dəstəyini və töhfələrini bundan sonra da əsirgəməyəcək".

## Dünyanın nüfuzlu liderlərindən İlham Əliyevə növbəti ehtiram və etimad nümunəsi

Rusiyanın Həştərxan vilayəti qubernatorunun vəzifəsini icra edən Sergey Morozovun təbrikini isə yüz minlərlə sakinin təşəkkürü kimi qiymətləndirmək olar. Azərbaycan Prezidentinin təşəbbüsü ilə vilayətdə həyata keçirilən layihələrin Həştərxanın simasını dəyişdirdiyini etiraf edən S.Morozov "Bu layihələr sizin şəxsi dəstəyiniz sayəsində mümkün olub. Buna görə sizə bütün həştərxanlılar adından dərin minnətdarlığımızı bildirirəm" yazır.

Böyük Britaniya və Şimali İrlandiyanın Kraliçası Ülyahəzrət II Elizabet, Yaponiyanın İmperatoru Naruhito, İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səud, İtaliya Prezidenti Sercio Mattarella, İsveçin Kralı XVI Karl Qustav, Belçikalıların Kralı Filip, Hindistan Prezidenti Ram Nat Kovind, Bolqarıstan Prezidenti Rumen Radev, Qırğız Respublikasının Prezidenti Sooronbay Jeenbekov, Tacikistan Prezidenti Emoməli Rəhmon, Türkmənistanın Prezidenti Qurbanqulu Berdiməhəmmədov, Koreya Prezidenti Mun Ce-in, Əlcəzair Xalq Demokratik Respublikasının Prezidenti vəzifəsini icra edən Əbdülqadir bin Saleh, Kuba Respublikası Dövlət Şurasının və Nazirlər Şurasının Sədri Migel Dias-Kanel Bermudes, Avstraliya İttifaqının General-Qubernatoru Piter Kosqrov, İraq Respublikasının Baş naziri Adil Abd əl-Mehdi, San-Marino Respublikasının kapitan-regentləri Nikola Selva və Mişel Muratori, Səudiyyə Ərəbistanı Krallığının vəliəhdi, Baş nazirin müavini, müdafiə naziri Məhəmməd bin Salman bin Əbdüləziz Al Səud və digərlərinin məktublarında da İlham Əliyevə ehtiram və etimad ifadə olunur, Azərbaycanın son illərdə qazandığı nailiyyətlər qeyd edilir.

Ümumilikdə isə Prezident İlham Əliyevə ünvanlanan məktubların coğrafi miqyası nə qədər genişdirsə, qarşılıqlı əməkdaşlığın dərinləşməsinə ifadə olunan ümidlər daha böyükdür.

**İxtiyar HÜSEYNLİ,**
**"Azərbaycan"**

# Davamlı islahatlar yüksək sosial rifahın təminatıdır

Əvvəli 1-ci səh.

*İqtisadi və sosial sahədə aparılan islahatlar nəticə verir. Biz, Dünya Bankının biznes mühitinə dair hesabatına görə, bu gün dünyada 25-ci yerdəyik. Mən bunu dəfələrlə qeyd edirəm, ictimaiyyət bilsin ki, nə qədər böyük islahatlar aparılıb və aparılacaq. Bu, imkan verir ki, biz sosial sahəni də gücləndirək, işsizliyi aradan qaldıraq, yerli istehsalı artıraq və beləliklə, vətəndaşların sosial təminatını gücləndirək. Bu il atılan addımlar, imzalanmış sərəncamlar, qəbul edilmiş qərarlar bizim siyasətimizi əks etdirir. Biz sosialyönümlü siyasət aparırıq və bu siyasət öz nəticəsini verir".*

İqtisadiyyatın daha da gücləndirilməsi, şaxələndirilməsi istiqamətində qarşıya qoyulan əsas məqsəd ilk növbədə idxaldan asılılığı azaltmaq, ixracın həcmini artırmaqdır.

Təkcə 4 ayın statistik göstəricilərinə əsasən deyə bilərik ki, ixrac yenə də idxalı üstələyir. Bu da qeyri-neft sektorunun innovativ inkişafı sayəsində reallaşır. İlin 4 ayı ərzində həyata keçirilən ixrac əməliyyatları ümumilikdə 11 milyard 639 milyon 281 min dollar təşkil edib. Bunun ümumi həcminin 4 milyard 549 milyon 421 min dolları idxalın, 7 milyard 89 milyon 959 min dolları isə ixracın payına düşüb.

Bütün sahələrdə islahatların davam etdiriləcəyini deyən Prezident ilin sonunadək hələ çox layihələrin reallığa çevriləcəyini vurğulayıb.

Regionların sosial-iqtisadi inkişafı üzrə IV Dövlət Proqramının artıq icrasına başlanılması yeni uğurlardan xəbər verir.

Xalqın sosial vəziyyətinin yüksəldilməsi istiqamətində ciddi addımlar atan İlham Əliyev aprelin 18-də Suraxanı rayonunun Qaraçuxur qəsəbəsindəki Neftçilər parkında vətəndaşlarla səmimi söhbəti zamanı bu günədək imzalanan sənədləri böyük islahatlar paketinin bir hissəsi adlandıraraq bildirdi ki, hazırda ölkənin iqtisadi vəziyyəti və maliyyə durumu yaxşıdır. Əlavə əldə edilmiş bütün gəlirlər vətəndaşların sosial müdafiəsinə yönəldiləcək.

Göründüyü kimi, Prezidentin sosial-iqtisadi islahatlar paketinin başlıca məqsədi Azərbaycanın inkişaf etmiş, güclü iqtisadi potensiala malik, milli həmrəyliyin və qanunun aliliyinin təmin olunduğu sosial dövlət statusunun daha da möhkəmləndirilməsidir. İslahatlar paketi çərçivəsində verilmiş qərarlar, imzalanmış sərəncamlar cəmiyyət həyatının bütün sahələrinə müsbət təsir göstərir.

Yeni sosial-iqitisadi model bazar iqtisadiyyatı prinsipləri əsasında hazırlanır və əlverişli biznes mühitinin yaradılmasını, insan kapitalının inkişaf etdirilməsini, sahibkarlara daha yaxşı şəraitin təmin olunmasını, dövlət mülkiyyətində olan müəssisələrlə bağlı islahatların həyata keçirilməsini və digər məsələləri nəzərdə tutur.

Bu gün Azərbaycanın hədəfi neftdən asılı olmayan güclü iqtisadiyyat formalaşdırmaqdır. Qəbul olunan və icra edilən yol xəritələri, digər qərarlar əsasən bu məqsədə xidmət edir. Azərbaycan mühüm transmilli enerji layihələri həyata keçirir, bu layihələrin icrası qarşıdan gələn illərdə Azərbaycanın əhəmiyyətinin daha da yüksəlməsi və maliyyə imkanlarının artmasını təmin edəcək. Əlbəttə ki, iqtisadi potensialın gücləndirilməsi ölkənin qeyri-neft sənayesinin inkişafı, yeni zavod və fabriklərin açılması, sənaye komplekslərinin yaradılması prosesini daha da sürətləndirəcək.

Beynəlxalq reytinq agentlikləri Azərbaycanın potensial maliyyə və iqtisadi imkanlarını yüksək qiymətləndirirlər. Dünya Bankının biznes mühitinə dair hesabatına görə, Azərbaycan dünyada 25-ci yerdədir.

Bütün bunlar isə əyani şəkildə göstərir ki, Cənubi Qafqazın lider ölkəsi iqtisadiyyatın rəqabətqabiliyyətliliyinə görə də dünya ölkələri arasında öncül yerlərdən birini tutur.

**Rəşad BAXŞƏLİYEV,**
**"Azərbaycan"**

# Əli Kərimli siyasi etikanın bütün sərhədlərini aşıb

Azərbaycan daha bir idman bayramının astanasındadır. İlk dəfə UEFA Avropa Liqasının final matçına evsahibliyi edəcəyik. Bu, həqiqətən də, dövlətimiz adına böyük etimaddır. Eyni zamanda, Azərbaycanda indiyədək keçirilən beynəlxalq idman yarışlarına yüksək səviyyədə təşkilatçılığı təsdiqləyən reallıqdır.

O da həqiqətdir ki, ölkəmizdə keçirilən beynəlxalq tədbirlərin heç birində təhlükə yaradacaq hallar baş verməyib və ümumiyyətlə, bu məsələ müzakirə mövzusu ola bilməz. Ölkəmizə həm işgüzar səfər edən, həm istirahət məqsədilə, həm də yarışları izləməyə gələn azarkeşlər buradan xoş təəssüratlarla qayıdıblar. Onlar həm qonaqpərvərlikdən, həm də təhlükəsizliyin yüksək səviyyədə təminindən razılıqlarını bildiriblər.

Sözsüz ki, bütün bunlar ölkəmizin inkişafını istəməyən və əldə etdiyi uğurlara qısqanclıqla yanaşanların, antiazərbaycançı dairələrin narahatlığına səbəb olur. Bütün beynəlxalq tədbir və yarışlar ərəfəsində "aktivləşən" bu dairələr yenə də öz çirkin planlarını "işə salıblar".

Ancaq ən təəssüfedicisi odur ki, "sapı özümüzdən olan baltalar" yenə onlara dəstək verirlər. Dəfələrlə öz siyasi riyakarlığı, xəyanət və satqınlığı ilə Azərbaycan dövlətçiliyinə, xalqına düşmən kəsildiyini təsdiqləyən AXCP sədri Əli Kərimli həmin dairələrin sifarişini yerinə yetirir.

İndiyədək ölkəmizdə keçirilən beynəlxaq idman tədbirləri Azərbaycana iqtisadi, siyasi dividendlər qazandırıb. Ancaq idman yarışlarından xəbərsiz olan Əli Kərimli sosial şəbəkələrdə yazdığı statusla özünü yenə biabır edir. Bu şəxs iddia edir ki, "bütün dünyaya sevinc, istirahət, pul gətirən futbol bizə problem gətirir". Görəsən, final matçının Bakıda keçirilməsi Azərbaycana hansı problemi gətirə bilər ki?

Mayın 29-da dünyanın futbol ictimaiyyətinin diqqəti Bakıya yönələcək. Bu, dünyada sülhün və sabitliyin bərqərar olması istiqamətində çalışan, multikultural dəyərlərin, tolerantlığın təbliği və təşviqinə üstünlük verən ölkəmizin nüfuzunun daha da yüksəlməsinə öz töhfəsini verəcək.

Amma Əli Kərimlinin fikirləri hansısa erməni siyasətçi, erməni idmançının fikirlərindən fərqlənmir. Bu siyasətçi iddia edir ki, guya "Çelsi" və "Arsenal" klublarına ayrılan biletlər geri qaytarılır. Azarkeşlər Bakıya gəlməkdən imtina edirlər. Tamamilə səhv fikirdir. Çünki son məlumatlara görə, artıq final matçına biletlər satılıb və bu oyunda Avropa Liqasının tarixində yeni rekord müəyyənləşə bilər. Buna qədər 1999-cu ildə Moskvada keçirilən "Parma" - "Latsio" oyununda azarkeş rekordu qeydə alınıb (62 min). UEFA-nın saytında dərc edilən məlumata görə, Bakı Olimpiya Stadionunun azarkeş tutumu 70 minə yaxındır və bu səbəbdən də paytaxtımızda keçiriləcək oyunda rekord təzələnə bilər.

Amma Əli Kərimli sadəlövh şəkildə Bakıya turistin az gələcəyini, qazancın az olacağını iddia etməklə özünü gülünc vəziyyətə salıb. Görəsən, bu qısqanclıq, xəyanət nə qədər davam edəcək?

Düşmən dəyirmanına su tökən bu "siyasətçi", həqiqətən də, siyasi etikanın bütün sərhədlərini aşıb. Hətta idman yarışları ərəfəsində ölkəyə ziyan vurmağa çalışan belə şəxsdən hər şey gözləmək mümkündür. Antiazərbaycançı dairələrdən aldığı göstərişlər və sifarişlər əsasında "fəaliyyət" göstərərək milli maraqlara qənim kəsilən Əli Kərimlidən ancaq bunu gözləmək olar.

Görünən isə odur ki, Azərbaycan bu final matçına yüksək səviyyədə evsahibliyi etməklə daha bir uğura imza atacaq. Dünya Bakıda mayın 29-da keçiriləcək yüksəksəviyyəli idman bayramının şahidi olacaq. Azərbaycan özünün milli dəyərlərini təqdim etməklə yanaşı, ölkəmizdə əsrlər boyu mövcud olan multikultural və tolerant dəyərləri yenə dünyaya nümayiş etdirəcək.

Möhtəşəm final matçı ilə bundan öncə qazandığımız nailiyyətlər sırasına daha birisini yazaraq ölkəmizə düşmən kəsilənlərə növbəti zərbəni vuracaq. Görəsən, Əli Kərimli bundan sonra hansı bəhanələr uyduracaq?!

**R.BAXŞƏLİYEV,**
**"Azərbaycan"**

# Aerobika gimnastikası üzrə XI Avropa çempionatının ikinci günü maraqlı idman mübarizəsi ilə yadda qalıb

Mayın 25-də Bakıda aerobika gimnastikası üzrə XI Avropa çempionatının ikinci günü maraqlı idman mübarizəsi ilə yadda qalıb.

AZƏRTAC xəbər verir ki, çempionatın ikinci günündə böyük gimnastlar mübarizəyə qoşulublar.

Aerodans proqramında çıxış edən Ayxan Əhmədli, Balaxanım Əhmədova, Nərminə Hüseynova, Nigar İbrahimbəyli, İmran İmranov, Akif Kərimli, Elçin Məmmədov və Mədina Mustafayevadan ibarət komandamız təsnifat mərhələsində 17,350 xalla ikinci olub və finala yüksəlib. Komandamız finalda Rusiya, İtaliya, Macarıstan, Ukrayna və Almaniya kollektivləri ilə birgə mübarizə aparacaq.

Avropa çempionatında fərdi qadın proqramı üzrə təsnifat yarışlarında hakimlərdən 21,300 xal alan Rusiya idmançısı Yekaterina Pixatova birinci olub. Türkiyəli Begüm Ayşe Onbaşı təsnifat mərhələsini ikinci, digər rusiyalı idmançı Tatyana Konakova üçüncü pillədə başa vurublar. İlk üçlükdən əlavə, Bolqarıstan gimnastları Darina Paşova, Ana-Mariya Stoilova, ispaniyalı Belen Quillemot Esterleç, Portuqaliya təmsilçisi Sara Silva və rumıniyalı Sandra Kristina Dinca da finalda




yarışacaqlar. Azərbaycan təmsilçiləri Xoşqədəm Quliyeva 25-ci, Nərminə Hüseynova isə 31-ci olublar.

Turnirdə üçlüklərin təsnifat yarışında Macarıstan komandası fərqlənib. Macarıstanlı gimnastların çıxışları hakimlər tərəfindən 22,361 xalla qiymətləndirilib. İlk üçlüyü Rusiyanın və Rumıniyanın ikinci komandaları tamamlayıblar. İlk üç pillədə qərarlaşan komandalarla yanaşı, finalda Rusiya, Rumıniya, Türkiyə, İtaliya-2 və Finlandiya-2 kollektivləri medallar uğrunda mübarizə aparacaqlar.

Avropa çempionatında fərdi kişi proqramı üzrə yarışlarda Rusiya idmançıları uğurla çıxış ediblər. Hakimlərdən 21,950 xal alan Roman Semenov birinci olub. Onun komanda yoldaşı Timur Kulaev 21,500 xalla ikinci pillədə yer alıb. Bolqarıstanlı Antonio Papazov 21,350 xalla ilk üçlüyü tamamlayıb. Azərbaycan gimnastları Vladimir Dolmatov 9-cu, Elçin Məmmədov isə 18-ci yerdə qərarlaşıblar.

Qarışıq cütlüklərin yarışlarında Macarıstan-2 komandası 22,050 xalla bütün rəqiblərini qabaqlayıb. Rusiya-2 kollektivi 21,950 xalla yarışı ikinci, Rumıniya-2 komandası isə 21,650 xalla üçüncü pillədə başa vurub. Azərbaycan komandası 17-ci pillədə yer alıb.

Qrupların təsnifat yarışında Azərbaycan komandası 19,555 xalla yeddinci olub və finala yüksəlib. Bolqarıstan 22,066 xalla bütün rəqiblərini qabaqlayıb. Rusiya 22 xalla ikinci, Rumıniya 21,983 xalla üçüncü pillədə qərarlaşıb.

Yarışlar başa çatdıqdan sonra mükafatlandırma mərasimi təşkil edilib. Böyüklərin komanda hesabında Rusiya birinci, Rumıniya ikinci, Macarıstan isə üçüncü olub.

Mayın 26-da yekun vurulacaq çempionatda 22 ölkədən 400-ə yaxın böyük və gənc gimnast qadın və kişi, qarışıq cütlük, üçlük, qrup, həmçinin aerodans, aerostep (yalnız böyüklər) yarışlarında mübarizə aparırlar.

# Ağ-qara dünyanın atlı şahzadəsi



**Zəriflərin dünyası**

**"Debütü keçmişəm, amma hələ həyatımın mittelşpil səviyyəsindəyəm, yəni orta. Sona - enşpilə isə yaxınlaşmamışam. Bu elə bir vəziyyətdir ki, orada düşünmə, uzağı hesablama, yaxşı təhlil, analiz bacarıqları tələb olunur. Düşünürəm ki, məndə o potensial var və belə davam etsəm, həyatımın enşpil mərhələsinə üzüağ, alnıaçıq gedib çatacağam. Və arxaya baxanda "niyə?" deyib heyifsiləndiyim bir məqam olmayacaq..."**

*Aynur Sofiyeva*

Aynur Sofiyeva 19 iyul 1970-ci ildə Qax şəhərində anadan olub. 1977-ci ildə Qax şəhərindəki 1 nömrəli məktəbin ikinci (birbaşa) sinifinə daxil olub, 1986-cı ildə həmin məktəbi qızıl medalla bitirib.

1986-cı ildə Bakı Dövlət Universitetinin jurnalistika fakültəsinə qəbul olub. 1991-ci ildə ali təhsilini fərqlənmə diplomu ilə başa vurub və 1997-2001-ci illərdə Bakı Dövlət Universitetində hüquqşünas ixtisası alıb.

1998-2000-ci illərdə Azərbaycan Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliyində aparıcı, daha sonra baş hüquq məsləhətçisi vəzifələrində çalışıb. İkinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olub. 1974-cü ildən idmanın şahmat növü ilə məşğul olur. 6 yaşında gənclər arasında rayon çempionu, 14 yaşında qızlar arasında, 15 yaşında qadınlar arasında Azərbaycan çempionu, 16 yaşında qızlar arasında SSRİ çempionu adını qazanıb. 20 yaşında tələbələr arasında dünya çempionu (2 qızıl medal), həmin ildə 20 yaşadək qızlar arasında dünya çempionatının gümüş medalçısı, 1993-cü ildə Azərbaycan komandasının tərkibində 26 yaşadək gənclər arasında dünya çempionatında gümüş medal qazanıb, bir çox beynəlxalq turnirlərin qalibi olub.1990-cı ildə Azərbaycanın ilk beynəlxalq qrossmeysteri, islam dünyasında isə qadınlar arasında ilk beynəlxalq qrossmeyster adını qazanıb. 2002-2007-ci il illərdə Azərbaycan Şahmat Federasiyasının prezidenti olub.

2007-cı ildən etibarən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədrinin müavini vəzifəsində çalışır.

Ailəlidir, iki övladı var.

*Bir zamanlar dünyanı mat qoyan bir qızcığaz var idi...*
*Qızıl yallı atını şahə qaldıranda baş əyirdi cümlə-cahan qarşısında...*
*Zərif bir həmləsi yetərdi ki, ağ-qara dünyanı fəth etsin...*
*Müdriklikdə Afina ilə yarışırdı...*
*Məhsətinin, Natəvanın xələfi - Aynur Sofiyeva...*



## O, qəlblərdə şahmatçı kimi taxt qurmuşdu...

*Ötən əsrin 80-ci illəri idi...*

*Hələ lap kiçik yaşlarından şahmat kimi ağır zehni fəaliyyət tələb edən bir idman növündə müvəffəqiyyətlərə nail olmuş, nəinki öz ölkəsində - SSRİ-də, hətta çox xarici dövlətlərdə şöhrət qazanmışdı. Dünyanın hər yerindən ardı-arası kəsilmədən ona məktublar, hədiyyələr ünvanlanır, xöş sözlər yağdırırdılar. Gənclərin örnək götürəcəyi sevimli kumirə çevrilmişdi...*

*Analar övladlarını, nənələr nəvələrini Aynur adlandırırdılar, onun kimi istedadlı, uğurlu, əzmkar olsun deyə...*

*Ətrafında yaranan bütün bu şöhrət hay-küyü isə Aynur üçün o qədər də əhəmiyyətli deyildi: "Mən məşhurlaşmağı, tanınmağı xoşlamırdım. Uşaqlıqdan xarakterim belə idi. Elə düşünürdüm ki, şahmatda uğur qazanaraq borcumu yerinə yetirirəm, əvvəlcə rayonumu təmsil edirdim, sonra ölkəmi tanıdırdım dünyada... Başqa necə ola bilərdi ki..."*

*Sonralar ölkənin müqəddəratı ilə bağlı bir çox vəzifələrdə eyni məsuliyyətlə çalışdı...*

*Amma o, qəlblərdə şahmatçı Aynur Sofiyeva kimi taxt qurmuşdu...*

*Aynur Sofiyeva dedikdə şahmat, şahmat dedikdə Aynur Sofiyeva gəlirdi gözlər önünə...*

*20 yaşı var idi, Azərbaycanın ilk beynəlxalq qrossmeysteri, islam dünyasında isə qadınlar arasında ilk beynəlxalq qrossmeyster adını qazanmışdı.*

*Reytinq cədvəlində dünyanın 10 ən güclü şahmatçısı sırasına daxil olmuşdu. Arzusu dünya çempionu olmaq, o tacı Azərbaycana gətirmək idi, amma zirvədə şahmatla yollarını ayırdı...*

*Aynur Sofiyeva şanlı, qürurlu ömür yoluna "Zəriflərin dünyası"ndan boylanır...*



## Rəqiblərim öncə atımı götürməyə çalışırdılar

- 4 yaşımdan şahmat oynamağa başlamışdım. Məndən bir yaş böyük qardaşımla 3 yaşından etibarən dama oynamağa başladım. 4 yaşımda isə atam şahmat alıb gətirmişdi. Dediklərinə görə, hiss ediblər ki, məndə nə isə xüsusi istedad var. Şahmat vurğunu idim, özü də yalnız güclü rəqiblərlə oynamaq istəyirdim. Yadımdadır, 5 yaşım olanda şahmat taxtasını vururdum qoltuğuma, yollanırdım yaxınlığımızdakı məktəbə ki, orada alman dili müəllimi Baba müəllimlə oynayım...

6 yaşımda artıq çempion idim. 7-8 yaşımda isə məni ölkə səviyyəsində tanımağa başladılar. O zaman Zərdabda zona yarışına getmişdim. Orada məni sonradan məşqçim olan Aleksandr Aslanov kəşf etmişdi. Oyunda atla etdiyim bir gedişi çox bəyənmişdi. Demişdi ki, 7 yaşlı şahmatçı belə uzağı görə bilməz...

Sonradan dünya səviyyəsinə çıxanda da məni atla güclü oynayan şahmatçı kimi tanıyırdılar. Ona görə rəqiblərim çalışırdı ki, taxtadan birinci atımı götürsünlər.

## Birbaşa ikinci sinfə qəbul olundum...

- Bütün bunlarla yanaşı, təhsilimi də heç vaxt kənara qoymurdum. 6 yaşım olanda qardaşımın sinfinə gedirdim. Hətta elə olurdu ki, qardaşım dərslərini hazırlamayanda gecə gizlincə lampanı yandırıb onun dərslərini yazırdım. Mənim bu bacarığım barədə mərkəzə - Bakıya məlumat verdilər. O zaman komissiya məndən imtahan götürdü. Bütün toplama, çıxma misallarını həll edirdim. Elə hesablayırdım ki onlar bunu qeyri-adi üsul kimi dəyərləndirirdilər. Beləliklə, məni birbaşa ikinci sinfə götürdülər. 10-cu sinfə qədər qardaşımla bərabər oxuduq və hər ikimiz məktəbi qızıl medalla bitirdik. Şahmata necə idisə, dərslərimə də o cür məsuliyyətlə yanaşırdım. Yadımdadır, 16 yaşımda çempion



olub qayıdanda gecə çatmışdıq rayona. Buna baxmayaraq, qardaşımdan sabah hansı dərslərin olduğunu öyrənib hazırladım. Hər zaman bu xasiyyətdə olmuşam. Heç zaman xoşlamamışam ki, kimsə mənim önümə keçsin. Ona görə də düşünmürdüm ki, yarışdan gəlmişəm, SSRİ çempionuyam, bütün Azərbaycan məndən danışır, dərslərimi hazırlamaya bilərəm...

O zaman SSRİ çempionu olmaq elə dünya çempionu olmaq kimi hesab edilirdi. SSRİ şahmat məktəbi həm kişilər, həm də qadınlar arasında dünyanın ən güclüsü idi. Buna baxmayaraq, son sinfə qədər çalışmışam ki, şahmata görə mənə hansısa bir qiymət verməsinlər, öz səyim, biliyim nəticəsində buna nail olum...



## Jurnalistikanı seçdim, amma...

- Məktəbi bitirən il dünya çempionatına getməli idim və bu qəbul imtahanları ilə üst-üstə düşürdü. Buna görə də artıq seçim edib getməli idim. Mən də şahmat aləmində olduğum üçün federasiyadan yığıldılar və məsuliyyətli bir qərar verməyə çalışdılar ki, şahmata mane olmasın. Öz arzum hüquqşünas olmaq idi. Nənəm kitabxanaçı idi və lap kiçik yaşlarımdan onun evə gətirdiyi hüquq kitablarını oxuya-oxuya məndə bu sahəyə istək yaranmışdı. Amma o zaman məktəbi bitirib birbaşa bu sahəyə gəlmək olmazdı, ən azı iki il stajın olmalı idi. Ona görə də biz jurnalistikanın üstündə dayandıq. Amma özümdə jurnalist qabiliyyəti görmürdüm. Məni belə inandırdılar ki, gələcəkdə idman jurnalisti ola bilərəm və hər iki sahəni birlikdə apara bilərəm. Belə də etdim və jurnalistikanı qırmızı diplomla bitirdim. Amma hüquqşünas olmaq arzusu da ürəyimdə qalırdı. Ona görə də ikinci təhsil olaraq oranı da bitirdim...

2000-ci ildə isə Milli Məclisə deputat seçildim. Çalışırdım ki orada da səssiz qalmayım, müəyyən fəaliyyətlərim oldu. Amma indi düşünürəm ki, bugünkü təcrübəm ilə, hansı ki, 10 ilə yaxındır ailə, qadın, uşaq məsələlərinə ən incəliyinə qədər bələdəm, bu istiqamətdə Milli Məclisdə daha fərqli fəaliyyət göstərərdim...

## Hələ də elə qadınlar var ki, öz hüquqlarını bilmirlər

- Hazırda çalışdığım sahə xüsusilə bu gün ən vacib, həssas istiqamətlərdən biridir. Bizim hər sözümüz, fikrimiz, fəaliyyətimiz həmin istiqaməti dəyişdirməyə qadirdir. Çalışırıq ki, insanları zamana və milli dəyərlərə uyğun olaraq düz yola yönləndirə bilək.



Bu gün Azərbaycan qadını fəaldır. Fərqi yoxdur, şəhərdədir, yoxsa uzaq rayonun ən ucqar kəndində. Bunun əsasında dövlətin siyasəti, formalaşmış qanunvericilik bazası durur. Bu gün cəmiyyətdə qadınlarımızın öz potensialını, bacarığını göstərməsi üçün bütün imkanlar var. Sadəcə, bu imkanlardan istifadə etmək lazımdır ki, bu gün Azərbaycan qadını buna nail ola bilsin. İnkişafın əsas göstəricisi olan statistik rəqəmlər təsdiqləyir ki, bütün sahələrdə, hətta qeyri-ənənəvi sahələrdə də qadınlarımızın irəliləyişi var. Amma hər bir cəmiyyətdə olduğu kimi, bizdə də müəyyən problemlər var. Hələ də elə qadınlar var ki, öz hüquqlarını bilmirlər. Məsələn, onlar bizə müraciət edəndə görürük ki, əgər o, öz hüququnu bilsəydi, həmin problemlərlə qarşılaşmazdı. Çalışırıq ki, fəaliyyət istiqamətimizdə qadınlarla daha çox maarifləndirmə işi aparaq. Qadınlarla danışanda onların daha çox məişət zorakılığı problemi ilə qarşı-qarşıya olduğunu görürük. Bəzən fikirlər səsləndirilir ki, məişət zorakılığı halları artıb. Amma biz bununla o mənada razı deyilik ki, nə qədər cəmiyyət var, bu problemlər həmişə olub. Sadəcə, bu gün mövcud olan informasiya-kommunikasiya texnologiyalarının inkişafı və hər hansı hadisə baş verəndə ilk sosial şəbəkələrin xəbər tutması, hadisələri çılpaqlığı ilə qabardıb verməleri cəmiyyətə əks təsir göstərir. Məsələn, elə intihar halları ilə bağlı araşdırma aparanda görürük ki, bu barədə sosial şəbəkələrədə, mətbuatda həddindən çox informasiya gedəndə təsirlənənlər və bu yola əl atanlar çoxalır...

## Bəzən valideynlər uşağa olan sevgi ilə təminatını səhv salırlar

- Sadə ailənin övladıyam, anam müəllimə olub, atam mühəndis. Amma onlar atdığım bütün addımlarda hər zaman mənə dəstək olublar. Ailədə uşaqların valideynlərin dəstəyinə böyük ehtiyacı var. Mən özüm də bu sahə ilə məşğul oluram. Bəzən görürük ki, ailədə valideyn-uşaq münasibətləri düzgün qurulmur, o da gətirib müəyyən faciələrə çıxarır, bu bizi çox ağrıdır. Bizim dövrümüzdə də valideynlər çalışırdılar ki, uşaqları hərtərəfli inkişaf etsin. Musiqiyə, kitabxanalara aparırdılar. Biz, uşaqlar öz aramızda yarışırdıq ki, kimin evində daha zəngin kitabxana var, kim daha çox kitab oxuyub. Uşağın tərbiyəsinə yanaşma fərqli idi.




Düzdür, indi də belə ailələrimiz çoxdur. Amma əksi olanlar da var və buna görə təəssüf edirəm. Çünki bu gün imkanlar daha çoxdur. Hər bir bölgədə uşağın inkişafı üçün mərkəzlər də, əyləncə yerləri də var. Amma təəssüflər olsun ki, təhlil edəndə görürük ki, valideynlər özlərinə əziyyət vermək istəmirlər. Bu maddi vəziyyətlə də bağlı deyil. Ən imkanlı ailələrdə də tez-tez rast gəlirik ki, uşağı ən bahalı məktəblərdə oxutmaq, yaxşı geyindirmək, telefon və s. ilə təmin etməklə ona sevgi verdiklərini düşünürlər. Bəzən valideynlər uşağa olan sevgi ilə onun təminatını səhv salırlar. Bu gün ailələrdə ən böyük problemlərdən biri ünsiyyətin olmamasıdır. Düzdür, hər kəsin işi, problemləri var, amma ən azından bir masa arxasında oturaraq uşağın iç dünyası ilə tanış olmaq, ona istiqamət vermək olar. Təəssüf ki, bu gün çox böyük bir kütlədə bu yoxdur. Bu zaman uşaq onda yaranan sualların cavabını sosial şəbəkələrdə axtarmağa başlayır...

## Bu gün sosial şəbəkələrdə ziyalı insanların sözü vacibdir, sağlam düşüncələr irəli sürülməlidir...

- Bilirik ki, bu gün sosial şəbəkələrin başında müəyyən mənfi qüvvələr durur ki, onlar uşaqları, gəncləri məhz həmin istiqamətə yönləndirirlər. Bu gün biz övladımızda sosial immunitet yaratmasaq, o, cəmiyyətdə yanlış mövqe tutacaq.

Hazırda mən sosial şəbəkədə yoxam, amma müəyyən məsələlər ətrafında olan müzakirələr göstərir ki, burada fikrimizi bildirməliyik. Bu gün sosial şəbəkələr insanların fikir istiqamətini dəyişdirə bilir. Ona görə burada ziyalı insanların sözü vacibdir, sağlam düşüncələr irəli sürülməlidir. Təbii ki, indi də sosial şəbəkələrdə ziyalılarımız münasibət bildirir, amma daha da fəal olmalıyıq. Bizim gənclik dövrümüzdə internet ekzotik bir vasitə kimi qəbul olunurdu. Amma internetdə sürətli inkişaf baş verdikdən sonra bu sürətli keçidlə ayaqlaşa bilmədik, onun gerisində qaldıq və düzgün adaptasiya keçə bilmədik. Bax, bizim bugünkü problemimizdən biri də budur və düşünürəm ki, ziyalılar bu istiqamətdə də fəallaşmalıdırlar...




## Atdığın addımın uğurlu olması üçün uzağı görmək vacibdir

- Həyatım boyu atdığım bütün addımlarımda şahmatın mənə köməyi olub. Hər hansı bir qərarın uğurlu olması üçün uzağı görmək vacibdir. Hətta bəzən evdə bəzi hərəkətlərimə gülürlər - o mənada ki, artıq birinci addım atılanda mən sonu görüb o barədə qızlarıma deyirəm. Amma onlar sona çatmadıqları üçün başa düşmür, deyirlər ki, sən nədən danışırsan? Mənim daxilimdə bu proses gedir və elə bilirəm ki, ətrafdakılar da belə düşünə bilir...

Şahmat ümumi zehnin inkişafı üçün faydalı oyundur və hamı şahmat oynaya bilər, amma yüksək nəticə qazanmaq üçün, professional şahmatda sözünü demək üçün istedad mütləqdir. Buna görə gözəl yaddaş, uzağı görmə, analiz etmə qabiliyyəti olmalıdır. Amma mən öz yaddaşımdan narazıyam. Məndə uzağı görmək və analiz qabiliyyəti daha yüksək idi. Düşünürəm ki, yaddaşımın ən yüksək səviyyədə olmamasını zəhmətkeşliyim və analizimin güclü olmağı sığortalayırdı. Hər oyun oynananda rəqib təxminən 20-ci gedişə qədər əzbərləyirdi ki, filankəs belə oynayır. Mən isə hər dəfə oynayanda yeni bir partiyaya başlayırdım. Bu isə mənə kömək edirdi, standart yollarla getmirdim. Haradasa kənara çıxırdım, düşünüb fərqli yollar tapırdım ki, bu da rəqibi çaşdırırdı...

## Uğurlarıma belə sevinməyə zamanım yox idi

- Daim yarışlarda, məşqlərdə olduğum üçün tam olaraq uşaqlığımı keçirməmişəm. Həyətdə oynayım, rəfiqələrimlə əylənim, kinoya gedim...

Hətta uğurlarıma belə sevinməyə zamanım yox idi...

Bəzən olurdu ki, ən gərgin vaxtlarda fikrimdən keçirdi ki, niyə mən də digər yaşıdlarım kimi əylənə bilmirəm...

Amma bu hal tez ötüb keçirdi və dərhal düşünürdüm ki, təslim olmaq olmaz...

Həmçinin federasiyada böyüklərimizdən biri mənə belə bir söz demişdi: "Sən indi "çirkin ördək balası"san, amma zaman gələcək, sən gözəl bir qu-quşu olub göylərdə uçacaqsan və o zaman qiymətini biləcəksən ki, zamanında niyə bu əziyyətləri çəkmisən..."

Belə bir deyim var: nə zaman özünü rahat hiss edirsənsə, deməli, uçuruma, elə ki, gərginlik hiss edirsən, deməli, zirvəyə doğru gedirsən.



## İkimiz də tanınmış idmançı idik

- 1990-91-ci illər idi. O dövrdə futbola böyük maraq var idi, xüsusilə də hamı "Neftçi" komandasına azarkeşlik edirdi. Yoldaşım Yunis Hüseynov da həmin komandanın kapitanı idi, qiyabi olaraq idmançı kimi televiziyadan tanıyırdım.

Elə o zamanlarda bir dəfə futbolçu tələbə yoldaşımın yanına gəlmişdi. Biz orada tanış olduq və sonra da, yəqin ki, xasiyyətimiz, dünyagörüşümüz üst-üstə düşdüyü üçün bir il keçmədən ailə qurduq.

Hər ikimiz tanınmış idmançı olduğumuz üçün toyumuz hər kəs tərəfindən maraqla qarşılanmışdı...

## Qəbullardan hər gün ağlayaraq çıxırdım...

- Mən poeziyanı xoşlayıram. Bəxtiyar Vahabzadənin, Şəhriyarın özlərinin səsləndirdikləri şeirləri dinləməyi xoşlayıram və bu mənə ruhi qida verir. Ən yorğun zamanlarımda da o səs yazılarını dinləyib istirahət edirəm. Mənə elə gəlir ki, şairlər o şeiri yazanda hansı hisləri keçiriblərsə, onu özləri səsləndirəndə elə həmin hislər sanki onu dinləyənə də eynilə keçir...

Kiçik yaşlarımdan Səttar Bəhlulzadənin əsərlərini seyr etməyi xoşlayıram. O əsərlərdə vətənə vurğunluq görürəm...

Düzdür, zamanım olmur, amma vaxt tapan kimi ölkəmizdə və xaricdə sərgilərə getməyə çalışıram.

Çox duyğusal insanam. Yadımdadır ki, komitədə fəaliyyətə başlayanda qəbullardan hər gün ağlayaraq çıxırdım. Sonra özümə təlqin etməyə çalışdım ki, o insanların qarşısında həmin emosiyanı göstərmək düzgün deyil! Amma bəzən onlar özləri, övladları ilə bağlı elə problemlərlə gəlirlər ki, onu həll etmək mümkün deyil. Tutaq ki hansısa sağalmaz xəstəliyi var, ona heç nə ilə kömək edə bilmirsən, dərdinə şərik ola bilmirsən, nə desən, nə söyləsən faydasızdır. Bax o məqamda o ağrını-acını hiss etməmək mümkün deyil...

## Hər məğlubiyyətin arxasınca qələbələr gəldiyini bilsəm də...

- 1990-cı il idi. Azərbaycanda xaos hökm sürürdü, nəinki şahmat, hətta Azərbaycan özü belə məhv olmaq təhlükəsi ilə üz-üzə idi. O dövrdə cəhdlərim olurdu ki, turnirlərə gedim. Amma idmançılar yaxşı bilirlər ki, ildə bir turnir ilə formada qalmaq mümkün deyil. O zaman bu çətinliklər məni şahmatdan küsdürdü.

Amma 1993-cü ildə ulu öndər Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra hər bir sahə kimi, idmana da böyük qayğı göstərdi. Yadımdadır, 1994-cü ildə ulu öndər biz gəncləri qəbul etmişdi, problemlərlə maraqlanmış, fikirlərimizi öyrənmişdi. Həmin görüşdən sonra gözləmədiyimiz anda televiziyada eşitdik ki, Heydər Əliyev bir neçə idmançını, o cümlədən məni "Tərəqqi" medalı ilə təltif edib. Bu isə böyük şərəf idi mənim üçün. Düşünürdüm ki, bundan sonra fəaliyyətimi daha da gücləndirməliyəm. Həmin dövrdə imkanlar da yaradıldı, amma mən o dediyim zirvə dövründən təxminən 4-5 il keçmişdi. Yarışlara gedirdim, lakin məğlubiyyətlə üzləşəndə bunu qəbul edə bilmirdim. Hər zaman turniri birinciliklə bitirən şahmatçı haradasa ortalarda, yaxud bir az yuxarıda olmaqla barışa bilməzdi. Amma bu labüd idi, olmalı idi, çünki o formanı yığmaq üçün müəyyən illər lazım idi. Buna görə də yavaş-yavaş geri çəkilməyə başladım. Bəlkə də bu, mənim qələbə ilə bağlı eqoistliyimdən irəli gəlirdi. Halbuki bilirdim ki, hər bir məğlubiyyətin arxasınca mütləq qələbələr gəlir...

Elə buna görə də qızlarımın şahmatla məşğul olmasına razı olmadım. Bəlkə də onlarda bu istiqamətdə hansısa bir istedad var idi, amma mən şahmatdan küsdüyüm üçün onları tamamilə təhsilə yönəltdim. Bu addımı atmaqla düz edib-etmədiyimi isə bilmirəm...



## İndi mənim evimdə şahmat yoxdur...

- Ən son qazandığım medal gümüş oldu. Tədricən şahmatla aramda məsafə yarandı və indi də o uçurum qalmaqdadır...

Amma boynumda o borc qaldı. Ölkənin ən çətin zamanlarında dəstək göstərmişdilər, inanmışdılar, təltif etmişdilər, amma mən özümü bir daha şahmatda göstərə bilmədim...

Ulu öndərlə son görüşümüz 2002-ci ilin əvvəllərində oldu. Heydər Əliyev tədbirlərdən sonra insanlarla görüşməyi, fikirlərini öyrənməyi xoşlayardı. Həmin gün də Şəhidlər xiyabanını ziyarət edəndən sonra adəti üzrə gəlib insan-



larla görüşdü, söhbət etdi. Bir də gördüm ki, uzaqdan mənə tərəf gəlir. O cür dünya şöhrətli, idealım olan bir insan şəxsən mənimlə görüşdü. O zaman dediyi söz heç yadımdan çıxmır. Sonra yanımızdakı Svetlana xanımla da görüşüb dedi ki, "bu mənim keçmiş kadromdur, bu da gənc kadrom..."

Bax buna görə özümdən razı deyiləm. Belə bir şəxsiyyətin mənə verdiyi qiyməti, etimadı doğrulda bilmədim. Onun məndən umduğu, gözlədiyi o nəticəni Azərbaycana gətirə bilmədim...

Bilirsiniz, indi mənim evimdə şahmat yoxdur. Şahmat uşaqlığımın dostu idi, amma ondan uzaq düşdüm...

Kaş ki, özümdə güc tapardım, fərqi yox idi ki, arada 3 il itirmişdim. Məğlubiyyətə qarşı bir az dözümüm olaydı...

Həyatımda "kaş ki" dediyim məqam yalnız şahmatla bağlıdır, başqa hər şey necə düşünmüşəmsə, elə də davam edir...



*Bu, Aynur Sofiyeva idi. Hər zaman məsuliyyətli, özünə qarşı tələbkar, səmimi, sadə və təvazökar Aynur Sofiyeva...*

*Həyatı boyu şan-şöhrət, ad-san xüsusi bir əhəmiyyət kəsb etməyib onun üçün...*

*Öz təbirincə desək, həmişə başını aşağı salıb, üzərində olan məsuliyyəti həyata keçirməyə çalışıb: "Heç zaman vəzifədəyəm kimi bir hissə qapılmamışam. İndi də həssas və çətin bir işdə çalışıram, amma layiqincə öhdəsindən gəlmək üçün əlimdən gələni edirəm".*

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

Energetiklərimiz

# Nurlu insan

O, İkinci Dünya müharibəsinin ölüm saçan odundan-alovundan keçdikdən sonra ali təhsil alaraq 27 yaşında Bakının böyük bir sənaye rayonunun elektrik şəbəkəsinin baş mühəndisi olmuşdu. Çalışqanlığı, fitri istedadı və yüksək təşkilatçılıq bacarığı, səmərəli fəaliyyəti sayəsində 41 yaşında Azərbaycanın əməkdar mühəndisi fəxri adına layiq görülmüşdü.



Həmid Müfid-Zadə həyatının 50 ildən çoxunu Azərbaycan energetikasının inkişafına, ölkənin sənaye kompleksinin, şəhər və kəndlərimizin elektrik enerjisi ilə fasiləsiz olaraq təchizatına həsr etmişdi. Bakı (Suraxanı, Əzizbəyov rayonları), Gəncə və Sumqayıt kimi iri sənaye şəhərlərinin elektrik şəbəkələrinə uğurla rəhbərlik edərək respublikanın iqtisadi qüdrətinin artmasına mühüm töhfələr vermişdir.

H.Müfid-Zadə Azərbaycan Demokratik Respublikası dövründə - 1919-cu ilin 26 mayında qədim Ordubad şəhərində tanınmış Mir Müfid - ağır seyid nəslindən olan Miryusifin ailəsində dünyaya gəlmişdi. 1934-cü ildə 7 illik məktəbi bitirdikdən sonra təhsilini davam etdirmək, yaxşı bir sənət sahibi olmaq arzusu ilə Gəncə şəhərindəki Sənaye politexnikumunun dağ-mədən şöbəsinə qəbul olunmuşdu. Lakin bir müddət sonra həmin şöbənin Azərbaycan Sənaye Texnikumuna verilməsi onun təhsilini paytaxt mühitində davam etdirməsinə səbəb oldu və bu, gələcək həyat yolunun müəyyənləşməsində böyük uğurlarının ilk təməlinə yol açdı.

1939-cu ildə Həmid Müfid-Zadə sonralar AZİ kimi tanınan Azərbaycan Dövlət Sənaye institutunun Energetika fakültəsinin qiyabi şöbəsinə daxil olur. Elə həmin ildə ovaxtkı "Azərenerji" Baş İdarəsinin K.Marks adına Elektrik Şəbəkələri İdarəsində texnik vəzifəsinə qəbul edilir və 1942-ci ilədək Əzizbəyov rayonunun elektrik şəbəkəsində növbətçi dispetçer kimi çalışır.

Faşist Almaniyasının SSRİ-yə qarşı başladığı müharibə çox ağır, qanlı dəhşətləri ilə davam etsə də, Bakının strateji əhəmiyyəti, cəbhənin fasiləsiz olaraq böyük həcmdə neftə ehtiyacı, bunun üçün də elektrik enerjisinə tələbatın yüksək olduğu nəzərə alınaraq, 1941-1942-ci illərdə neft və energetika sahələrində çalışanların əksəriyyətinə bron verilmişdi. Çünki müharibədə qələbəyə nail olmaq üçün ölkəyə yüz minlərlə sıravi döyüşçülər və zabitlərlə yanaşı, ordu artilleriyası və hərbi aviasiya üçün milyonlarla ton neft və benzin də lazım idi. Ona görə də bir çox iş yoldaşları, yaşıdları kimi, Həmid də əvvəlcə orduya çağırılmamışdı. Lakin 1942-ci ilin avqustunda Stalinqradın başı üstünü qara buludlar alanda - sovet rəhbərinin adını daşıyan həmin şəhər uğrunda qanlı döyüşlər başlayanda Həmid də cəbhəyə yollanmalı olur və Şimali Qafqazdakı 319-cu diviziyanın 1341-ci atıcılıq alayının tərkibində döyüşlərdə iştirak edir. İkinci batalyonun tank əleyhinə tağım komandiri kimi düşmənə qarşı mətinliklə, mərdliklə vuruşur. Bilirdi ki, ondan arxada, Qafqazın o tayında Azərbaycandır, Bakıdır, düşmənə fürsət vermək olmaz.

Düşmənin artıq geri oturdulduğu döyüşlərin birində yaxınlığında partlayan düşmən mərmisinin qəlpələrinin ağrısını əvvəlcə qolunda, çiyinlərində, sonra ayağında hiss etmişdi. Gözünü səhra hospitalında, ağır cərrahiyyə əməliyyatından sonra açmışdı. Hospitalda 3 ay müalicə aldıqdan sonra həkimlər Həmidin daha döyüşlərdə iştirak edə bilməyəcəyi qənaətinə gələrək onun ordudan tərxis olunmasına qərar vermişdilər.

Özündən kiçik qardaşı, xalq rəssamı Cəmil Müfid-Zadənin xatırladığına görə, Həmid Ordubada qoltuq ağaclarında, lakin sinəsində döyüş orden-medalları ilə dönmüşdü.

Müharibədən qayıtdıqdan sonra - 1944-cü ildə ali təhsilini başa vuran Həmid Müfid-Zadənin elmi biliyi, praktik təcrübəsi və çalışqanlığı nəzərə alınaraq, 1946-cı ildə ona - 27 yaşlı bir gəncə baş mühəndis vəzifəsi etibar edilir. Bu, olduqca məsuliyyətli bir vəzifə idi. Şəbəkə avadanlığının daim saz və işlək olmasına birbaşa məhz o, cavabdehlik daşıyırdı. Odur ki, gecə-gündüz, yorulmaq bilmədən çalışır, şəbəkədəki vəziyyəti hər an nəzarətdə saxlamalı olurdu.

Həmid Müfid-Zadə baş mühəndis kimi cəmi iki il səmərəli fəaliyyət göstərdikdən sonra - 1948-ci ildə - 29 yaşında Suraxanı rayonunun elektrik şəbəkəsinin rəisi vəzifəsinə təyin olunur. Bu, Azərbaycana Mircəfər Bağırovun rəhbərlik etdiyi elə bir dövr idi ki, bir-iki neft quyusuna verilən elektrik enerjisinin kəsilməsinə görə şəbəkənin "birinci şəxs"i kimi nəinki vəzifə ilə, hətta həyatla da xudahafizləşmək istisna deyildi. Çox ağır, məşəqqətli müharibədən çıxmış, şəhərləri, kəndləri dağıdılmış SSRİ-nin, onun rəhbərliyinin qəti, sərt tələbi belə idi. Ancaq işində hər zaman son dərəcə diqqətli, məsuliyyətli olan, çalışdığı neft rayonunda elektrik şəbəkəsinin fəaliyyətini səmərəli qurmağı bacaran Həmid Müfid-Zadə özünün yüksək peşəkarlığı, qazandığı zəngin praktik təcrübə sayəsində düz 10 il - 1948-ci ildən 1958-ci ilə qədər Suraxanı kimi mürəkkəb sənaye rayonunda elektrik şəbəkəsinin rəisi vəzifəsində uğurla fəaliyyət göstərmişdi.

Mingəçevir Su Elektrik Stansiyasının ilk direktorlarından olmuş İmamverdi Əliyev sonralar həmkarını ehtiramla xatırlayaraq söyləyirdi ki, o, Həmid Müfid-Zadə ilə özünün Bakıdakı "Qırmızı ulduz" ("Krasnaya zvezda") İstilik-Elektrik Mərkəzində, dostunun isə Suraxanı elektrik şəbəkəsində işlədikləri vaxtlarda tanış olmuşdu. O, Həmid müəllimin çox savadlı bir mühəndis-energetik, işgüzar və yüksək təşkilatçılıq qabiliyyətinə malik rəhbər işçi olduğu barədə məmnunluqla danışardı. Sonralar tale onları qonşu şəhərlərə - Gəncəyə və Mingəçevirə aparmışdı. İmamverdi müəllim "Azərenerji" Baş İdarəsinin rəhbərliyi tərəfindən Mingəçevir SES-ə, Həmid müəllim isə o vaxt yenicə təsis edilərək, mərkəzi Gəncədə nəzərdə tutulan, Ağsu aşırımından tutmuş Gürcüstan sərhədlərinədək olan böyük bir ərazini əhatə edən Qərb Elektrik Şəbəkəsinə direktor təyin edilmişdilər. Bu yeni qurum yaradılarkən "Azərenerji"də ora kimin direktor təyin ediləcəyini müzakirə etməyə ehtiyac olmamışdı. Elə əvvəlcədən o məsuliyyətli sahəyə göndəriləcək şəxs məlum idi - bu, hər bir çətinliyin öhdəsindən mətinliklə gəlməyi bacaran Həmid Müfid-Zadə idi.

O zamanlar Azərbaycan sənayesi coşqun inkişaf dövrünü yaşayırdı və Gəncə respublikanın ikinci böyük sənaye mərkəzi idi. Qərb Elektrik Şəbəkəsi isə Azərbaycanda ən böyük şəbəkə idi və Gəncə ilə yanaşı, Mingəçevir, Daşkəsən, Yevlax, Şəki, Zaqatala, Qax və Balakən rayonlarını elektrik enerjisi ilə təmin edirdi.

Mingəçevir SES-in istehsal etdiyi elektrik enerjisinin regionun bütün sənaye istifadəçilərinə və hətta ucqar yaşayış məskənlərinə fasiləsiz olaraq itkisiz çatdırılması Qərb şəbəkəsi kollektivinin qarşısında duran mühüm vəzifə idi. Məhz həmin dövrdə Azərbaycanın qərb zonasında neçə-neçə ucqar kənd evləri, məktəblər, klublar, kitabxanalar və s. ilk dəfə olaraq işıqlandırıldı, əhaliyə işıq sevincləri bəxş edildi.

"Qərb"in rəhbəri kimi Həmid müəllimin qarşısında duran mühüm vəzifələrdən biri elektrik enerjisi verilişində fasilə və digər qüsurlara yol verilməməsi idi. Bunun üçün şəbəkə rəhbəri respublikanın qərb rayonlarına şəxsən baş çəkərək, yüksək gərginlikli elektrik xətlərinin, polad dirəklərin, şəbəkənin ayrı-ayrı sahələrindəki texniki avadanlığın vəziyyətinə nəzarət edir, lazım gəldikdə köhnə avadanlığın, o cümlədən yarımstansiyaların yenisi, daha müasiri və enerji itkisi minimum olanları ilə əvəz edilməsinə, paylayıcı yükü çox olan sahələrdə əlavə transformatorların, yarımstansiyaların quraşdırılmasına nail olurdu.

Təsadüfi deyildi ki, çalışdığı bütün sahələrdə nəinki məsuliyyətli olan, həm də sənətindən-peşəsindən böyük zövq alan yenilikçi şəbəkə rəhbəri Qərb Elektrik Şəbəkəsində iki il səmərəli fəaliyyət göstərdikdən sonra - 1960-cı il mayın 28-də yüksək fəxri ada - Azərbaycanın əməkdar mühəndisi adına layiq görülmüşdü. Bu, vətən, xalq yolunda gecə-gündüz, yorulmaq bilmədən çalışan 41 yaşlı energetikin əməyinə verilən layiqli qiymət, böyük dəyər idi.

Yüksək təşkilatçılıq xüsusiyyətləri, "işıqçı" istedadı və bacarığı 1963-cü ilin yanvarında Həmid müəllimi yenidən "yerindən oynatdı". Bu dəfə o, daha yüksək və məsuliyyətli vəzifəyə - "Azərkəndenerji" Baş İdarəsinin rəisi vəzifəsinə irəli çəkilir. Bu isə o demək idi ki, Həmid müəllim daha hansısa bir region və bölgə üzrə deyil, bütün respublika üzrə kənd rayonlarının elektrik enerjisi ilə tam və fasiləsiz təminatına cavabdeh olacaqdı. Cəmi yarım il ərzində onun "Azərkəndenerji" sistemində kollektivlə birgə əldə etdiyi nailiyyətlər yüksək qiymətləndirildi və o, həmin ilin iyulunda "Azərenerji" Baş İdarəsinin Kollegiya üzvü seçilir.

...Həmid müəllimin 1964-cü ildə Azərbaycanın ən böyük sənaye şəhəri olan Sumqayıtın Elektrik Şəbəkəsinin direktoru vəzifəsinə təyin olunması onun həyatında yeni mərhələ açdı. Sumqayıtlılar yaxşı xatırlayırlar ki, Həmid müəllimin elektrik şəbəkəsinə rəhbərlik etdiyi dövrdə müəssisələrin ahəngdar rejiminin təmin olunması ilə yanaşı, şəhərdə mənzillərin, eləcə də sosial-mədəni obyektlərin elektrik və istilik enerjisi ilə təchiz edilməsində heç bir ciddi problem olmurdu. Onun Sumqayıtdakı fəaliyyəti dövründə şəbəkə üzrə səmərəliliyin artmasına xidmət edən bir çox mühüm yeniliklər tətbiq edilmiş, bu iri sənaye şəhəri üçün böyük əhəmiyyət kəsb edən 220 kilovoltluq Yaşma yarımstansiyası quraşdırılıb, istifadəyə verilmişdi.

Həmid müəllim Sumqayıtda 15 il səmərəli fəaliyyətindən sonra 1988-ci ilədək yenidən "Azərenerji" Baş İdarəsində məsul vəzifələrdə işləmişdi. Vaxtilə Bakıda neft rayonlarının keyfiyyətli işinin təmin edilməsində mühüm xidmətlərinə görə respublikanın o zaman məşhur neft sənayesi və hökumət rəhbərləri olan Ənvər Əlixanov, Süleyman Vəzirov və Əli Əmirov ona dəfələrlə təşəkkür və təbrik məktubları göndərmişdilər.

...Bu günlər görkəmli energetik, Azərbaycanın əməkdar mühəndisi, vətənə və xalqa həm bir döyüşçü, həm də istedadlı, zəngin təcrübəli mütəxəssis kimi çoxillik fəaliyyətinə, ən başlıcası sədaqətli xidmətə görə I dərəcəli "Vətən müharibəsi" ordeni, "1941-1945-ci illərdə Almaniya üzərində qələbəyə görə", "Rəşadətli əməyə görə", "Əməkdə fərqlənməyə görə" və s. medallarla təltif olunmuş unudulmaz insan Həmid Müfid-Zadənin 100 illik yubileyi yaxınlaşır. Görkəmli energetikin oğlu Röfət Müfid-Zadə də atasının yolunu davam etdirərək Azərbaycan Neft və Kimya İnstitutunu bitirmişdir, texnika elmləri namizədidir. Qızları Afət, Məlahət və Lətafət həkim və musiqiçidirlər.

...İllər ötdü, zaman dəyişdi, ancaq bir vaxtlar ölkəmizin hər yerində - Bakıda, Gəncədə, Sumqayıtda enerji təchizatı uğurla təmin edilmiş sənaye müəssisələrinin bugünkü inkişafında, nailiyyətlərində də Həmid müəllimin əməyi, payı vardır. Respublikamızın bütün kənd rayonlarında - Şəkidə, Göyçayda, Qubada, Qəbələdə, Qazaxda, Lənkəranda və s. ucqar dağ kəndlərində Həmid müəllimin qəlbinin odunu verdiyi minlərlə evin pəncərələrindən bu gün də onun bəxş etdiyi işıq seli süzülür.

***Xalid İSMAYILOV,***
***Dövlət mükafatı laureatı***

# Heydər Əliyev Fondu növbəti iftar süfrəsini Ağsuda açıb



Heydər Əliyev Fondu mayın 24-də müqəddəs ramazan ayında Ağsu rayonunda iftar süfrəsi açıb. Qeyd edək ki, Heydər Əliyev Fondu tərəfindən ramazan ayı ərzində bir sıra rayonlarda iftar süfrələri təşkil olunur.

AZƏRTAC xəbər verir ki, Ağsuda açılan iftar süfrəsində 400-ə yaxın rayon sakini iştirak edib.

Bildirilib ki, respublikamızda dövlət və din bir-birindən ayrı olsa da, Azərbaycan islam dininə, islam mədəniyyətinə mənsub ölkədir. Ruzi-bərəkət, həmrəylik, dostluq-qardaşlıq, sevgi və mərhəmət ayı hesab olunan ramazan digər müsəlman ölkələrində olduğu kimi, Azərbaycanda da qeyd edilir. Bu gün Azərbaycan dünya ölkələri üçün tolerantlıq nümunəsidir. Ölkəmizdə birlik və sabitlik hökm sürür, dini məbədlər təmir və bərpa olunur, islami və milli mənəvi dəyərlər qorunur.

Həmçinin Ali Baş Komandanın rəhbərliyi ilə bütün torpaqlarımızın tezliklə işğaldan azad olunacağına, o torpaqlarda da dini ayinlərin icra ediləcəyinə və iftar süfrələrinin açılacağına əminlik ifadə olunub.

İftar süfrəsi ətrafında on bir ayın sultanı olan ramazanın fəzilətlərindən danışılıb, bu ayda görülməsi vacib sayılan xeyirxah əməllərdən, savab işlərdən söz açılıb. Ölkəmizə əmin-amanlıq və sülh arzulanıb, torpaqlarımızın bütövlüyü uğrunda şəhid olanların ruhuna dualar oxunub.

## Azərbaycan Respublikası Təhsil Nazirliyi Lənkəran Dövlət Universiteti

### *açıq tenderə dəvət edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:

LOT 1. İnventarların alınması

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqavilənin yerinə yetirilməsi üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Lənkəran şəhəri, H.Aslanov xiyabanı, 50 nömrəli ünvanda ala bilərlər.

İştirak haqqı: 300 (üç yüz) manat.

Əlaqələndirici şəxs: Alxasov Samir Müseyib oğlu.

Telefon: (025) 255-14-80.

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:

**Lənkəran Dövlət Universiteti**
**Hesab №: AZ97AIIB33080019443870045138**
**VÖEN: 2600135481**
**"Kapital Bank" ASC Lənkəran filialı**
**Kod: 200383**
**VÖEN: 9900003611**
**M/H: AZ37NABZ01350100000000001944**
**SWIFT. BIK AIIBAZ2X**

Ünvan: AZ 4200, Lənkəran şəhəri, H.Aslanov xiyabanı, 50, Faks: (025) 255-27-86; www.lsu.edu.az:office@lsu.edu.az

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 04 iyul 2019-cu il saat 17:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 15 iyul 2019-cu il saat 17:00-a qədər Lənkəran şəhəri, Həzi Aslanov xiyabanı, 50 ünvanına, Lənkəran Dövlət Universitetinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 16 iyul 2019-cu il saat 15:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov, komissiyanın üzvləri və katibliyin rəhbərliyi maliyyə naziri Samir Şərifova əzizi

**ELÇİN ŞƏRİFOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Azərişıq" ASC-nin rəhbərliyi və kollektivi maliyyə naziri Samir Şərifova əzizi

**ELÇİN ŞƏRİFOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Ədliyyə nazirinin müavini Ceyhun Həsənov və Penitensiar xidmətin kollektivi maliyyə naziri Samir Şərifova əzizi

**ELÇİN ŞƏRİFOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Memarlar İttifaqı İdarə Heyətinin üzvləri və sədri Elbay Qasımzadə Samir Şərifova əzizi

**ELÇİN ŞƏRİFOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Ombudsman Elmira Süleymanova maliyyə naziri Samir Şərifova əzizi

**ELÇİN ŞƏRİFOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadə maliyyə naziri Samir Şərifova əzizi

**ELÇİN ŞƏRİFOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin rəhbərliyi və kollektivi maliyyə naziri Samir Şərifova əzizi

**ELÇİN ŞƏRİFOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin rəhbərliyi maliyyə naziri Samir Şərifova əzizi

**ELÇİN ŞƏRİFOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi maliyyə naziri Samir Şərifova əzizi

**ELÇİN ŞƏRİFOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi maliyyə naziri Samir Şərifova əzizi

**ELÇİN ŞƏRİFOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

# Heydər Əliyev Mərkəzində "Tarixin şah əsərləri" sərgisi açılacaq

Mayın 27-də Heydər Əliyev Mərkəzində Gürcüstan Milli Muzeyindəki Azərbaycan və Şərq kolleksiyalarından ibarət "Tarixin şah əsərləri" adlı sərgi açılacaq. AZƏRTAC xəbər verir ki, ekspozisiyada 300-dək eksponat nümayiş olunacaq. Üç bölmədə Qacarlar sülaləsi zamanı yaradılan və toplanan qədim fars incəsənəti, İrəvan xanlığının Sərdar sarayı kompleksindən kolleksiya və Dmitri Yermakovun arxivindən əldə edilmiş fotosənədlər təqdim ediləcək.

Sərgidə Qacarlar epoxasına aid qədim fars incəsənəti əksəriyyəti Fətəli şah dövrünə aid dünyaca məşhur yağlı boya rəsmləri, miniatürlər, keramika, metal məmulatları, tekstil və xalçalarla təqdim olunacaq. Təsvirin gücünü yaxşı bilən Fətəli şah nüfuzunu və nailiyyətlərini nümayiş etdirmək üçün memarlıq, rəsm və dekorativ sənətdən geniş istifadə edirdi. Sərgidə Fətəli şahın özünün portreti də yer alacaq.

Ekspozisiyada, həmçinin Azərbaycan panno rəngkarlığının banisi, Azərbaycan təsviri incəsənətinə böyük təsir göstərmiş ornament və portret ustası Mirzə Qədim İrəvaninin yağlı boya ilə işlənmiş altı əsəri sərgilənəcək. Mirzə Qədim İrəvani tikmə üçün olan trafaret rəsmləri, divar naxışları, zərgərlik məmulatları, lakla çəkilmiş rəsm əsərləri və şüşə rəssamlığı ilə tanınır. XIX əsrin ortalarında İrəvan xanlığının Sərdar sarayının salamat qalmış orijinal əsərlərini, həmin saray kompleksinin məscid və sarayının dekorunda işlədilən plitələri yenidən boyamış şəxs məhz o olub.

İrəvan xanlığının Sərdar sarayının arxeoloji qalıqları arasında Cənubi Qafqazın müxtəlif quberniyalarında yaşayan Azərbaycan xalqına məxsus ənənəvi kostyum və əşyalar, eləcə də mebel nümunələri, vazalar və digər gündəlik həyat atributlarından ibarət etnoqrafik kolleksiya da ekspozisiyada təqdim olunacaq. Bu eksponatlarla tanışlıq o dövrün həyat və məişət mənzərəsini daha aydın təsəvvür etməyə imkan verəcək, sarayın memarlıq üslubunu nümayiş etdirəcək.

Sərgidə hərbi topoqraf kimi çalışan, sonra isə Rusiya-Osmanlı müharibəsində iştirak etmiş D.Yermakovun fotoşəkillərindən ibarət kolleksiya da təqdim olunacaq. Müharibədən sonra Yermakov Tiflisdə foto işi ilə məşğul olub, Qafqaz bölgəsində səyahətlər edib və bir sıra arxeoloji ekspedisiyalarda fəaliyyət göstərib. İrəvanın Sərdar məscidinin, divarlarında İran şahının, vəliəhdin, Qacar ailəsinin yerli hökmdarları və "Şahnamə" qəhrəmanlarının təsviri olan İrəvan xanlığı sarayı, onun Güzgülü zalındakı tarixi, yağlı boyalarla işlənmiş əsərlərin məhv edilməsi prosesini təfərrüatları ilə göstərən unikal fotoşəkillər silsiləsini yaradıb.

Sərgi oktyabrın 6-dək davam edəcək.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 9055
Sifariş 1710
Qiyməti 40 qəpik